№ 51 (994) 21-27 dekabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir



Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfəri çərçivəsində Sumqayıt Kimya Sənaye Parkında olub, burada görülən işlərlə tanış olub, yeni müəssisələrin təməlqoyma və açılış mərasimlərində iştirak edib.

Bu layihə Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanına uyğun olaraq həyata keçirilib. Fərmana əsasən Sumqayıt Kimya Sənaye Parkı və İqtisadiyyat Nazirliyinin tabeliyində parkın idarəedici təşkilatı olan "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb. Hazırda Parkda istehsalat və tikintidə 5700 nəfərdən çox işçi çalışır.

İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına burada görülən işlərlə bağlı məlumat verərək bildirdi ki, Sumqayıt Kimya Sənaye Parkının ümumi ərazisi 505,6 hektardır. Rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir. Artıq 15 müəssisəyə Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib.

2013-cü ildən fəaliyyətə başlayan "Azertexnolayn" MMC Türkiyə, Almaniya və Çin texnologiyası əsasında polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edilir. Parkın rezidentlərindən biri olan "STP" Məhdud Məsuliyyətli Cəmiyyəti müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış zavodlar kompleksidir. "SOCAR Polymer" Məhdud Məsuliyyətli Cəmiyyətinin illik istehsal gücü 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen təşkil edəcək. Bu, son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ən böyük layihələrdən biridir.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri arasında "Alco Lubricant Company" Məhdud Məsuliyyətli Cəmiyyəti də var. Bu gündən fəaliyyətə başlayan müəssisədə il ərzində avtomobil, hava və dəniz nəqliyyatında, kənd təsərrüfatı, sənaye və energetika sahələrində istifadə olunan 30 min ton müxtəlif növ yüksək keyfiyyətli sürtkü yağlarının istehsalı nəzərdə tutulub. Almaniya texnologiyası əsasında yaradılan müəssisədə 100 nəfər daimi iş yeri ilə təmin olunacaq. "MST Engineering Services" Məhdud Məsuliyyətli Cəmiyyətində ABŞ-ın Parker texnologiyası əsasında ildə 30 min ədəd yüksək təzyiqə davamlı xortum və fitinq istehsalı nəzərdə tutulur.

"Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyəti İtaliya texnologiyası əsasında yaradılacaq. Burada istehsal olunacaq məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xarici bazarlara da ixrac ediləcək.

Silisium və Kalsium İstehsalat Müəssisəsində ildə 5 min ton tikinti qatqıları istehsal olunacaq. "Azerbaijan Fibro Cement" Məhdud Məsuliyyətli Cəmiyyətində ildə 6 milyon kvadratmetr fibro-sement lövhələr istehsal ediləcək. "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün fabrikində ildə 7 milyard ədəd siqaret istehsalı nəzərdə tutulub.

SOCAR karbamid zavodunda ildə 650-660 min ton azot gübrəsi istehsal ediləcək. Hazırda layihə üzrə tikinti-quraşdırma işləri davam etdirilir və bu işlərə 1800 nəfər cəlb edilib. Bu, Sənaye Parkında həyata keçirilən ən iri investisiya layihəsidir.

Bildirilib ki, Sumqayıt Kimya Sənaye Parkında 67 MVt gücündə 110/35/6.3 kV-luq yarımstansiyanın inşası da başa çatdırılıb. Yarımstansiyanı qidalandırmaq üçün 500 MVa gücündə olan Sumqayıt Elektrik Stansiyasından 110 kV-luq ikidövrəli kabel hava xətti çəkilib, müasir tələblərə cavab verən avadanlıqlar, o cümlədən yerli "ATEF" MMC tərəfindən istehsal olunan 80 MVa-lıq 2 güc transformatoru quraşdırılıb. Parkın kabel şəbəkəsi də "STP" MMC-dən alınmaqla bütünlükdə yerli məhsullar hesabına təmin edilib. Mərkəzləşdirilmiş SCADA sisteminə qoşulan yarımstansiyanın yaradılmasından əsas məqsəd Sənaye Parkındakı müəssisələrin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin etməkdir.

Sonra Prezident İlham Əliyev parkın ərazisində "AzerFloat" Qapalı Səhmdar Cəmiyyətinin termoformasiya metodu ilə şüşə istehsalı zavodunun təməlini qoymuşdur.

Məlumat verilmişdir ki, "AzerFloat" Qapalı Səhmdar Cəmiyyəti Almaniyanın bu sahədə böyük təcrübəsi olan şirkətinin texnologiyası əsasında yaradılacaq. Müəssisədə il ərzində termoformasiya metodu ilə 8 milyon kvadratmetr şüşə istehsal olunacaq. Yeni müəssisədə 180 nəfər işlə təmin olunacaq.

Dövlətimizin başçısı Sumqayıt Kimya Sənaye Parkının ərazisində "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yunəyrici-boyaq fabrikinin də təməlini qoymuşdur.

Daha sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Gilan Sənaye Qrupu"na daxil olan "Aqrokimya Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin pestisidlər istehsalı zavodunun birinci mərhələsinin açılışında iştirak etmişdir.

Ümumi ərazisi 18,3 hektar olan zavodun istehsal sahəsi 21,4 min kvadratmetrdir. Kompleks 5 istehsal, 4 qablaşdırma, 5 məhsul və xammalsaxlama bölmələrindən ibarətdir. Müəssisənin birinci mərhələsinin illik istehsal gücü 10 min tondur, ikinci mərhələdə istehsalın həcmini 20 min tona çatdırmaq nəzərdə tutulub. Bu müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin SKMF tərəfindən 9,5 milyon manat güzəştli kredit verilib. Zavod İtaliya və Türkiyənin aparıcı şirkətlərinin ən son texnologiyalarından istifadə olunmaqla qurulub. İstehsalda gələcəkdə yerli xammaldan daha çox istifadə edilməsi nəzərdə tutulur.

Qeyd edilmişdir ki, hazırda ölkənin pestisidlərə olan tələbatı 9,1 min ton təşkil edir. Bununla yanaşı, 182 min hektar ərazidə yaradılmaqda olan aqroparkların, 463 hektar sahədə istixana təsərrüfatlarının və əlavə 36 min hektarda əkilməsi nəzərdə tutulan şəkər çuğunduru sahələrinin pestisidlərə olan tələbatı 681 ton proqnozlaşdırılır. Beləliklə, ölkənin pestisidlərə olan ümumi tələbatı 9,8 min ton təşkil edəcək.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının rezidenti - "STDC" Məhdud Məsuliyyətli Cəmiyyətinin layihəsi olan məlumatların emalı, qeydə alınması və ötürülməsi mərkəzinin - Data Mərkəzin açılışında iştirak etmişdir.

"Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına mərkəz barədə məlumat verərək bildirmişdir ki, ümumi investisiya dəyəri 60 milyon ABŞ dolları olan Data Mərkəzdə yüksək gücə malik texnoloji hesablama, kommunikasiya və təhlükəsizlik avadanlıqlarından istifadə edilib.

Prezident İlham Əliyev Data Mərkəzi işə salmışdır.

**(davamı 2-ci səhifədə)**

## Həştərxan vilayəti ilə Azərbaycan arasında əlaqələr möhkəmlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən Həştərxan vilayəti ilə əməkdaşlığın əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirilmişdir.

Həştərxanda Azərbaycan Biznes Mərkəzinin inşa olunduğunu deyən qubernator Aleksandr Jilkin bildirmişdir ki, bu biznes mərkəzi vilayətdə logistik qovşağın yaradılmasına xidmət edəcək. Aleksandr Jilkin Həştərxanda görülən işlərə verdikləri dəstəyə görə Azərbaycan Prezidentinə, Heydər Əliyev Fonduna, Azərbaycanın Birinci vitse-prezidenti, Fondun Prezidenti Mehriban Əliyevaya, Fondun vitse-prezidenti Leyla Əliyevaya xüsusi təşəkkürünü ifadə etmişdir.

Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq münasibətlərinin, xüsusən ticari, iqtisadi və regional əməkdaşlığın genişləndirilməsi işində Həştərxan vilayətinin rolunu vurğulayan Prezident İlham Əliyev bununla bağlı qubernator Aleksandr Jilkinə təşəkkürünü bildirmişdir.

Görüşdə 2018-ci ildə Həştərxan vilayəti tərəfindən Xəzər dənizində səyahət gəmilərinin buraxılması və bunun Xəzər hövzəsi ölkələri arasında turizmin inkişafına töhfə verəcəyi qeyd olundu, Həştərxan vilayəti ilə Azərbaycan arasında nəqliyyat-logistika əlaqələrinin genişləndirilməsi, Azərbaycanın kənd təsərrüfatı məhsullarının vilayət vasitəsilə Rusiya bazarlarına çıxarılması sahəsində birgə tədbirlər haqqında danışılmışdır.

Söhbət zamanı bu gün Bakıda keçiriləcək Həştərxan Biznes Mərkəzinin təməlqoyma mərasiminin önəmi vurğulandı, turizm, səhiyyə, kənd təsərrüfatı, təhsil, texnologiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Dekabrın 19-da Bakıda Həştərxan Biznes Mərkəzinin təməli qoyulub. Həştərxan Biznes Mərkəzinin ümumi sahəsi beş min kvadratmetrdən çox olacaq.

Beş mərtəbədən ibarət olacaq bu çoxfunksiyalı binada sərgi-ticarət, konfrans, fitnes zalları fəaliyyət göstərəcək, ofis otaqları, mini otel yaradılacaq.



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev Sumqayıt şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, çıxış etmiş, bildirmişdir ki, Sumqayıt Kimya Sənaye Parkının yaradılması Azərbaycanda sənaye sahəsində aparılan siyasətin təzahürüdür. Beş yüz hektar sahədə bütün kommunikasiya, rabitə, nəqliyyat, bir sözlə, bütün infrastruktur layihələri dövlət tərəfindən icra edilmişdir. Özəl sektor isə öz növbəsində ölkəmiz üçün vacib olan sahələrə investisiya qoyuluşunu təmin edib. Bu müəssisələrdə minlərlə insan işlə təmin olunur. Hazırda parkın 15 rezidenti var. Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir. Burada yaradılan sənaye müəssisələri ən yüksək standartlara cavab verir. Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda Kimya Sənaye Parkında 8 mindən çox insan işləyir - həm tikintidə, həm də müəssisələrin idarə olunmasında.Gələcəkdə bu rəqəm daha da artacaq.Deməli, Sumqayıtda işsizliklə bağlı bütün məsələlər öz həllini tapacaq.Biz gələcəkdə də Sumqayıtın hərtərəfli inkişafı üçün öz dəstəyimizi verəcəyik.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıtda Bayraq Muzeyinin, Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasının açılışında iştirak etmiş, Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin "Kimyaçı" Mədəniyyət Sarayında, Lüdviqşafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.

* * * * *

Prezident İlham Əliyev "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib, zavodu işə salmışdır. Yenidənqurmadan sonra zavodun illik istehsal gücü 90 min tondan 200 min tona çatdırılıb. Müəssisədə quraşdırılan müasir avadanlıq keyfiyyətli məhsul əldə etməyə imkan verir.

Quraşdırılan avadanlıq dünyanın bu sahədə aparıcı şirkətlərinin məhsuludur.

Müəssisənin mərkəzi sınaq laboratoriyası ABŞ, Avropa, Çin və Tayvanda istehsal olunan müasir avadanlıqlarla təchiz edilib. Laboratoriyada metalın bərkliyini, möhkəmliyini təyin edən avadanlıq quraşdırılıb, mikro və makrostruktur analizlər üçün hər növ mikroskoplar, metalın kimyəvi tərkibini təyin etmək üçün spektrometr qoyulub. Azərbaycan istehsalı olan borular daxili bazarda satılmaqla yanaşı, xarici ölkələrə də ixrac ediləcək. Müəssisənin məhsullarının Almaniya, Hollandiya, Belçika, İtaliya, Avstriya, Türkiyə, Rusiya, Qazaxıstan, Litva və Ukraynaya ixracı nəzərdə tutulur.

# Azərbaycanla Dünya Bankı arasında əməkdaşlıq uğurla davam edir

Prezident İlham Əliyev Dünya Bankı Qrupuna daxil olan Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyinin icraçı vitse-prezidenti və baş icraçı direktoru xanım Keiko Hondanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Keiko Honda Dünya Bankının prezidenti Cim Yen Kimin salamlarını dövlətimizin başçısına çatdırmış, təmsil etdiyi qurumun ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini, Azərbaycanda aparılan iqtisadi islahatları yaxından izlədiklərini və görülən işləri yüksək qiymətləndirdiklərini bildirmişdir.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Dünya Bankının Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara verdiyi davamlı dəstəyi yüksək qiymətləndirmiş və təşkilat tərəfindən ölkəmizə ayrılan maliyyə vəsaitlərinin önəmini qeyd etmişdir.

Dövlətimizin başçısı bu il Azərbaycanla Dünya Bankı Qrupu arasında əməkdaşlığın 25 illiyinin qeyd olunduğunu məmnunluqla bildirərək, ötən dövr ərzində Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyi tərəfindən ölkəmizdə xarici investorların həyata keçirdiyi bir sıra mühüm investisiya layihələrinə, eləcə də qlobal əhəmiyyətli "Cənub Qaz Dəhlizi" layihəsinə verilən dəstəyin önəmini vurğulamışdır. Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinin nəinki Azərbaycan, o cümlədən Avropa da daxil olmaqla geniş bir coğrafiyanı əhatə edən region üçün mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir. Ölkəmizin maliyyə qabiliyyətli etibarlı tərəfdaş olduğunu, üzərinə götürdüyü öhdəlikləri daim yerinə yetirdiyini qeyd edən dövlətimizin başçısı TANAP layihəsi ilə bağlı işlərin qrafikə uyğun, uğurla həyata keçirildiyini və vaxtında tamamlanacağını bildirmişdir.

Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatında neft amilini nəzərə almasaq, görərik ki, bu il qeyri-neft sektorunda 2,5 faiz, qeyri-neft sənaye sahəsində 3 faizdən çox, aqrar sektorda isə 4 faizdən çox inkişafa nail olunub. Neftin qiymətinin aşağı düşməsinin ümumi daxili məhsulun həcminə mənfi təsir göstərməsinə baxmayaraq, qeyri-neft sektoru ümumi daxili məhsulun 70 faizini təşkil edib. Dövlətimizin başçısı qeyd etmişdir ki, gələcəkdə Cənub Qaz Dəhlizinin işə düşməsi, "Əsrin müqaviləsi"nin müddətinin uzadılması, əlavə investisiya qoyuluşu, qlobal nəqliyyat layihələrinin uğurla həyata keçirilməsi Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərinə nikbinliklə baxmaq üçün əsas verir.

# Əksər müsəlman dövlətləri Qüdslə həmrəylik üçün birlikdə hərəkətdədirlər

Dekabrın 12-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) hazırkı sədri Türkiyə Respublikasının təşəbbüsü ilə Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısı keçirilmişdir. "Qüdslə həmrəylik üçün birlikdə hərəkət" devizi altında keçirilən Zirvə toplantısına 50-dək ölkədən dövlət və hökumət başçıları qatılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Zirvə toplantısında iştirak etmişdir.




Zirvə toplantısında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İslamın ilk qibləsi və üç müqəddəs məscidindən biri olan Əl-Aqsanın yerləşdiyi Qüds şəhərinin tarixi və hüquqi statusuna edilən təcavüzü müzakirə etmək üçün bir araya gəldiklərini diqqətə çatdırmışdır. O, ABŞ Prezidenti Donald Trampın dekabrın 6-da beynəlxalq hüquqa məhəl qoymayaraq, Qüdsü İsrailin paytaxtı kimi tanıdığını bildirmişdir. Rəcəb Tayyib Ərdoğan diqqətə çatdırmışdır ki, BMT Təhlükəsizlik Şurasının vaxtilə qəbul etdiyi qərara əsasən, heç bir ölkə Qüdsdə səfirlik aça bilməz. O, qeyd etmişdir ki, Fələstin məsələsi ədalətli şəkildə həll olunmadan beynəlxalq və qlobal sülhdən söhbət gedə bilməz.

Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas bütün dünya ölkələrinin Donald Trampın qərarına qarşı olduğunu və göstərilən həmrəyliyin bu niyyətin həyata keçməyəcəyinə əminlik yaratdığını vurğulamışdır. "Bütün ümmət birləşərək Qüdsün işğalına qarşı mübarizə aparmalı, bu şəhərin xarakterinin dəyişdirilməsinə icazə verməməlidir", - deyən Mahmud Abbas ABŞ Prezidentinin bu addımının beynəlxalq müqavilələri və BMT Təhlükəsizlik Şurasının qərarlarını açıq təhdid etdiyini və bununla da ABŞ-ın sülh prosesində vasitəçilik missiyasını itirdiyini diqqətə çatdırmışdır. "Qüds əvvəllər də olduğu kimi, Fələstin Dövlətinin paytaxtı olacaq, əks təqdirdə sabitlikdən və sülhdən söhbət gedə bilməz", - deyən Mahmud Abbas vurğulamışdır ki, Fələstin Dövlətinin tanınması prosesi sürətləndirilməlidir.

Daha sonra İordaniya Kralı II Abdullah, İƏT-in baş katibi Yusif Əl-Osaymin, İran Prezidenti Həsən Ruhani çıxış edərək, bu toplantının əhəmiyyətindən danışmışdır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etmişdir.

İlk növbədə, fövqəladə İslam Zirvə görüşünün təşkilinə görə Prezident Ərdoğana təşəkkürünü bildirən İlham Əliyev bu Zirvə görüşünü Türkiyənin İslam həmrəyliyi işinə verdiyi töhfənin növbəti təzahürü kimi qiymətləndirmişdir. O demişdir: "Amerika Birləşmiş Ştatları Prezidentinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnaməsinə zidd olan Qüds şəhərinin İsrailin paytaxtı kimi tanınması və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi ilə bağlı qərarı bizdə böyük narahatlıq yaradır. Bu qərar Fələstin-İsrail münaqişəsinin ədalətli və hərtərəfli nizama salınması işinə mənfi təsir edə, Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara bilər. Hesab edirik ki, ABŞ bu qərara yenidən baxmalıdır.

Azərbaycan ardıcıl olaraq Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Bir neçə il bundan əvvəl Azərbaycan Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransına və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransına ev sahibliyi etmişdir. 2017-ci ilin iyul ayında Azərbaycanda BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsinə dair komitənin, BMT-nin humanitar məsələlər üzrə əlaqələndirmə ofisinin, İƏT və müxtəlif qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə Qüds məsələsinə dair beynəlxalq konfrans keçirilmişdir. Konfransda Şərqi Qüdsün işğalı və Əl-Aqsa məscidində ibadət edənlərə qarşı tətbiq olunan məhdudiyyətləri qınayan bəyanat qəbul edilmişdir. Biz hər zaman olduğu kimi, bu gün də Fələstin xalqının yanındayıq.

Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfə verir, biz İƏT-in fəal üzvüyük. Azərbaycanın təşəbbüsü ilə İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi və İƏT-ə üzv dövlətlərin Jurnalistlər Assosiasiyası yaradılmışdır. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilib. Azərbaycan islamofobiyaya qarşı fəal mübarizə aparan ölkələrin ön sırasındadır. 2017-ci ildə Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilib. Bu möhtəşəm idman, dostluq, qardaşlıq bayramı bir daha bütün dünyaya göstərdi ki, İslam sülh, mərhəmət, bərabərlik dinidir. Əməkdaşlığı və qarşılıqlı dəstəyi gücləndirmək üçün digər bir imkan bu ay Bakıda keçiriləcək "İslam Həmrəyliyiİli"-nin qeyd olunması ilə bağlı beynəlxalq konfrans olacaqdır".

Prezident İlham Əliyev İƏT-ə, onun üzv dövlətlərinə və dünyadakı müsəlman cəmiyyətlərinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana göstərdikləri ədalətli dəstəyə görə təşəkkürünü ifadə etmiş, diqqəti 20 ildən artıq davam edən Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəltmişdir.

O, demişdir: "Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz. 1993-cü ildə BMT TŞ Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir.

İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişdir. Azərbaycan heç vaxt erməni işğalı ilə barışmayacaq, münaqişə yalnız və yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".

Zirvə toplantısında İstanbul Bəyannaməsi qəbul olunmuşdur.

# Azərbaycan, sözün əsl mənasında, güclü idman dövlətidir

Dekabrın 18-də Milli Olimpiya Komitəsində 2017-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Mehriban Əliyeva mərasimdə iştirak ediblər.




Dövlətimizin başçısı tədbirdə çıxış etmiş, demişdir:

-Əziz dostlar, 2017-ci il başa çatır. Bu il Azərbaycan idmançıları xalqımızı böyük qələbələrlə sevindirmişlər. Azərbaycanda idmanın inkişafı çox sürətlə gedir. Hər il idmançılarımız müxtəlif beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər, medallar qazanırlar. Bu il də medalların sayı kifayət qədər çoxdur. Azərbaycan idmançıları bu il bütün beynəlxalq yarışlarda 851 medal qazanmışlar ki, onlardan 347-si qızıl medaldır. Keçən illə müqayisədə medalların sayı daha çoxdur. Bu, onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanırlar.

Bu il bir çox idman qələbələrimiz olubdur. Bizim şahmatçılarımız üçüncü dəfə Avropa çempionu olmuşlar. Bu, böyük qələbədir, böyük nəticədir. Bu nəticə onu göstərir ki, bizim idmançılarımız həm döyüş, həm komanda, həm intellektual idman növlərində ən yüksək pilləyə qalxırlar.

Bu il bizim iki idmançımız - Məhəmmədrəsul Məcidov və Hacı Əliyev boks və sərbəst güləş üzrə üçqat dünya çempionu olmuşlar. Bu da tarixi qələbədir. Olimpiya idman növündə üçqat dünya çempionu olmaq böyük uğurdur, böyük qələbədir. Azərbaycan idman məktəbinin yetirməsi – azərbaycanlı idmançı Ramil Quliyev bu il ilk dəfə olaraq yüngül atletika üzrə dünya çempionu olmuşdur. Bu da tarixi qələbədir.

Komanda idman növlərində də idmançılarımız çox yaxşı nəticələr göstərmişlər. Bakıda keçirilmiş voleybol üzrə qadınlar arasında Avropa çempionatında voleybolçu qızlarımız dördüncü yerə layiq görüldülər.

Mən xatırlayıram, biz Olimpiya Stadionunu inşa edərkən bəzi fikirlər səslənirdi ki, bu qədər böyük arena bəlkə də bizə lazım deyil, Tofiq Bəhramov adına 30 minlik stadionumuz, digər stadionlarımız var və bu arena heç vaxt dolmayacaq. Ancaq bu gün həyat göstərir ki, "Qarabağ" futbol klubunun oyunlarına 60 mindən çox tamaşaçı gəlmişdi. Bu gün Bakı Olimpiya Stadionu dünya miqyasında seçilən Olimpiya stadionlarından biridir. Təsadüfi deyil ki, UEFA Avropa Liqasının final görüşü də bir neçə ildən sonra bu stadionda keçiriləcək. Eyni zamanda, futbol üzə Avropa çempionatının bir neçə oyunu da bu stadionda keçiriləcək.

Əlbəttə ki, bu il ən böyük qələbəmiz Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri olmuşdur. Bu Oyunlar, sözün əsl mənasında, böyük idman, dostluq, qardaşlıq bayramı idi. Azərbaycan bütün müsəlman ölkələrinin aparıcı idmançılarını qəbul etdi, əminəm ki, onlar öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar. Burada keçirilən Oyunlar bir daha Azərbaycanın gücünü göstərdi.

Beləliklə, təkcə sadaladığım bu hadisələr, bu qələbələr deməyə əsas verir ki, Azərbaycan, sözün əsl mənasında, güclü idman dövlətidir.

# Мягкий Самедзаде заговорил жестко

Завершается 2017 год. Правительство, компании, банки, предприятия и учреждения, да и домашние хозяйства уже приступили к подведению его экономических итогов. Со своеобразными отчетами в виде общедоступных статей в различных жанрах и формах о достижениях и потерях в сфере экономики выступают и СМИ.

Немало места в них отводится и перспективам, которые нас ждут в наступающем году. Честно говоря, сделать это сегодня не так уж и сложно, так как лишь недавно завершилось обсуждение государственного бюджета Азербайджана на 2018 год. Именно поэтому haqqin.az на сей раз решил рассмотреть экономическую ситуацию в стране глазами не журналиста или эксперта, а непосредственных участников этого обсуждения – депутатов и министров.



**Зияд Самедзаде**

Глава парламентского комитета по экономической политике, промышленности и предпринимательству Зияд Самедзаде подчеркнул, что проект госбюджета-2018 разработан на фоне роста глобальных рисков, и правительство страны провело масштабные работы по обеспечению его прозрачности и эффективности. Известно, что в будущем году Азербайджан будет отмечать 100-летие своей независимости и этот бюджет станет бюджетом столетия. Проект бюджета 2018 года является самым прозрачным за период независимости Азербайджана с учетом масштабов предоставленной в нем информации.

Нам со стороны, конечно, трудно судить о масштабах проведенной работы и степени прозрачности данного проекта. Но слова известного ученого-экономиста с высоким стажем депутатской работы заслуживают внимания. Ему куда легче судить об этом – не одно обсуждение проекта госбюджета страны как в советский период, так и в годы независимости страны проходило при его активном участии. К тому же в ходе последних обсуждений депутат высказал и ряд других интересных информаций.

Так, он отметил, что за последние 10 лет трансферты из Государственного нефтяного фонда в госбюджет страны составили огромную сумму - 76 млрд. долларов. По его словам, отсутствие данного трансферта могло бы создать для Азербайджана большие риски. Действительно, не будь этих денег, разве зажили бы мы как сегодня?! Выдержало бы государство итоги тех масштабных кризисов, с которым столкнулись в последние годы?! Нет, конечно. И говоря о рисках, депутат имел в виду не только названные факторы. Только трансферты Госнефтефонда и позволили стране вести независимую политику, добиться больших успехов во всех сферах жизни.

Многие с непониманием восприняли и цену на нефть, заложенную в госбюджете на следующий год в размере 45 долларов за баррель. Нефть – основной источник поступления в страну валюты, и этот вопрос волнует всех. Депутат же объяснил все доходчиво: если бы данный показатель был выше, то правительство могло столкнуться с ненужными рисками, а при меньшем значении этого показателя страна не смогла бы финансировать жизненно важные проекты. А закладка базовой цены на нефть в размере 45 долларов позволит достичь намеченных целей.

Опыт последних 15 лет показывает, что каждый год доходы госбюджета увеличиваются на 1,8-2 млрд. манатов. Исключения составляют лишь несколько лет. Очень высокий рост был зафиксирован в 2007-2008 годах, когда доходы госбюджета выросли на 4 млрд. манатов. Тогда цена барреля тоже выросла с 71 до 96,5 доллара. Максимальный же уровень роста приходится на 2011 год, когда доходы бюджета увеличились на 4,3 млрд. манатов, а цены на нефть - с 79 до 104 долларов за баррель. А сегодня страна нацелена на увеличение доходов госбюджета на 3,3 млрд. манатов. Это произошло благодаря созданию новых предприятий, рабочих мест и так далее.

Да, по прогнозам правительства, реальный рост ВВП Азербайджана в 2018 году составит 1,5%, а объем ВВП, как ожидается, составит 69,4 млрд. манатов. При этом 47,6 млрд. манатов ВВП придется на ненефтяной сектор, рост которого в следующем году составит 2,9%. Причем, 83% ВВП будет сформировано в частном секторе. Все это позволит довести долю налоговых поступлений в госбюджет - 2018 до 7,907 млрд. манатов или 11,4% от прогнозируемого ВВП страны. Еще 2,25 млрд. манатов поступят в госбюджет по линии Государственного таможенного комитета, что составляет 3,24% прогнозируемого ВВП Азербайджана. А чтобы судить, насколько все это масштабно, достаточно вспомнить, что в 2016 году ВВП Азербайджана сократился на 3,1%, а по итогам этого года правительство ожидает, что экономика страны вырастет на 0,3%, то есть роста практически не будет.

Но даже мягкий по натуре Самедзаде подчеркнул необходимость вернуть доверие населения к банковскому сектору страны. По словам председателя парламентского комитета, в настоящее время банковский сектор не проявляет активность в финансировании экономики. "Банковский сектор Азербайджана на сегодняшний день обладает достаточными активами, однако не участвует активно в процессе кредитования. Дело в том, что население утратило доверие к банковскому сектору. Нам необходимо вернуть это доверие", - заявил он.

Депутат даже подсказал, как надо решать проблемы в банковском секторе. В первую очередь необходимо достичь консенсуса в решении проблем между населением и банками, решать вопросы с проблемными кредитами, определить их структуру и провести дифференциацию.

По данным Центробанка, на начало октября 2017 года займы кредитных организаций Азербайджана составили 12,44 млрд. манатов, что на 25,9% меньше показателя аналогичного периода прошлого года. При этом объем просроченных займов в стране составил 1,86 млрд. манатов (вырос за год на 16,3%) при удельном весе в 15%. Комментарии, как говорится, излишни. Вместо улучшения этих основных для оживления экономики показателей, банковская система страны все более деградирует, тормозя его развитие. И пора бы одуматься, ведь такое состояние длится уже три года. Сколько же можно озираться вокруг после девальвации маната в 2015 году, ожидая помощи у правительства. Пора бы и самим что-то делать.

**www.haqqin.az**

**Автор: МамедЭфендиев, отдел экономики**

# Вице-президент: ВБ готов гарантировать инвестиции в новые проекты в Азербайджане

Многостороннее агентство по гарантированию инвестиций (MIGA, входит в группу Всемирного банка) ищет новые проекты для поддержки экономического развития в Азербайджане.

Об этом в интервью Trend сказала исполнительный вице-президент группы Всемирного банка (ВБ) и исполнительный директор MIGA Кейко Хонда, находящаяся с первым визитом в Баку.

По ее словам, в настоящее время группе Всемирного банка нужны хорошие прибыльные проекты, которые также соответствуют экологическим и социальным стандартам банка.

"В мире не так много проектов, которые соответствуют всем этим требованиям. Одним из подходящих под эти стандарты проектов является TANAP (Трансанатолийский трубопровод), являющийся частью "Южного газового коридора". Мы уже предоставили гарантию под кредит для TANAP. Поэтому мы приехали в Азербайджан, чтобы еще раз продемонстрировать нашу поддержку данному проекту, а также для того, чтобы найти новые возможности для сотрудничества с Азербайджаном", - сказала Хонда.

По ее словам, MIGA предлагает два различных продукта, один из которых - гарантирование инвестиций в проекты для государственного сектора, а второй - предоставление гарантий под проекты частного сектора.

"Первый инструмент мы уже используем в рамках проекта TANAP. Что касается второго инструмента, то мы можем гарантировать инвестиции различных частных компаний, выходящих на азербайджанский рынок. MIGA гарантирует от таких рисков, как волатильность курса валюты и ограничения на ее трансферы, расторжение контракта со стороны государства, конфискация и некоторых других рисков", - сказала исполнительный директор MIGA.

Коснувшись потенциальных сфер для сотрудничества с Азербайджаном, Хонда отметила, что MIGA может предоставлять гарантии в различных секторах.



"Мы можем работать в различных секторах, таких как энергетика и транспорт. Кроме того, в Турции мы поддерживаем сектор здравоохранения, в Африке - сельское хозяйство. Во время переговоров с правительством Азербайджана мы обсудили сотрудничество в таких сферах, как энергетика и обрабатывающая промышленность", - сказала Хонда.

Азербайджан присоединился к группе ВБ в 1992 году. В рамках сотрудничества с Азербайджаном MIGA в разные годы предоставило гарантии на кредиты для Azercell, Baku Coca-Cola Bottlers, Kocbank Azerbaijan (ныне YapiKredi Bank Azerbaijan) и для других компаний. Последним проектом, в котором участвовало агентство, стало предоставление гарантии под кредит для строительства Трансанатолийского трубопровода (TANAP), являющегося частью "Южного газового коридора".

В 2017 году MIGA поддержало частные инвестиции на 4,7 миллиарда долларов в развивающихся странах. С 1998 года MIGA поддержало свыше 800 проектов.

# «Коммерсантъ Деньги»: У российских туристов появился еще один фаворит — Азербайджан

Годы кризиса заставили российских туристов искать новые, максимально бюджетные направления для путешествий и теперь у российских туристов появился еще один фаворит – Азербайджан, пишет еженедельник «Коммерсантъ Деньги».

Еженедельное приложение газеты «Коммерсантъ» выяснило, чем страны ближнего зарубежья привлекают путешественников из России.

По данным Skyscanner, в топ-20 направлений для поездок на ближайшие новогодние праздники входят три страны ближнего зарубежья: на восьмом месте общего списка Грузия, на десятом - Азербайджан, на восемнадцатом Армения. Менеджер по развитию компании в России Дмитрий Хаванский не исключает, что в ближайшее время Грузия и Азербайджан поменяются местами. «Многие путешественники Тбилиси уже посетили и теперь открывают для себя Баку, кроме того, полеты в Азербайджан становятся все более доступными для россиян: много новых рейсов, появились новые перевозчики на маршрутах в Баку и Гянджу, в том числе авиакомпания Победа», - говорит он.

Похожие расчеты у поисковика Momondo. По словам представителя сервиса Ирины Рябовол, Азербайджан с 2015 года показал взрывной рост в 141 процент. «Сейчас страна на четвертом месте по популярности среди постсоветских направлений, но уже в 2018 году, по нашим прогнозам, переместится на второе», - отмечает она. Директор по развитию OneTwoTrip Аркадий Гинес рассказывает, что число продаж авиабилетов в Баку на новогодние даты за год выросло на 70 процентов. Это произошло, в частности, на фоне снижения стои-



мости перелета за аналогичный период на 27 процентов, до 13 тысяч рублей.

По расчетам Погранслужбы ФСБ России, за последние четыре года число туристических поездок в Азербайджан увеличилось на 18 процентов. Заметная позитивная динамика сохранилась и в этом году. По данным Погранслужбы, за первое полугодие в Азербайджан направилось на 59 процентов больше путешественников.

# Мировые цены на нефть растут

Цены на нефть эталонных марок незначительно растут во вторник, инвесторы ждут данных о запасах топлива в США.

Стоимость февральских фьючерсов на нефть Brent на лондонской бирже ICE Futures поднялась на $0,06 (0,09%) - до $63,47 за баррель. По итогам предыдущей сессии контракт подорожал на $0,18 (0,28%) - до $63,41 за баррель, сообщает Интерфакс.

Цена фьючерса на нефть WTI на январь на электронных торгах Нью-йоркской товарной биржи (NYMEX) увеличилась к этому времени на $0,13 (0,23%) - до $57,29 за баррель. В понедельник январские контракты на WTI подешевели на $0,14 (0,24%) - до $57,16 за баррель.

Поздно вечером во вторник свой отчет о запасах топлива в Штатах,




основанный на добровольно предоставляемых данных, представит Американский институт нефти (API), а официальные данные министерства энергетики США будут опубликованы в среду в 18:30 по московскому времени.

По прогнозам опрошенных Bloomberg экспертов, товарные запасы нефти в США на минувшей неделе сократились на 3 млн баррелей, запасы на терминале в Кушинге уменьшились на 2,2 млн баррелей. Согласно оценкам Минэнерго, добыча на крупнейших сланцевых месторождениях страны в следующем месяце достигнет 6,41 млн баррелей в сутки, хотя ранее ожидалось, что показатель составит 6,31 млн б/с.

Также участники нефтяного рынка оценивают новости из Ливии и Нигерии. По словам представителя профсоюза работников нефтяной отрасли Нигерии, сотрудники нефтедобывающих компаний приостановили забастовку и согласились продолжить переговоры с работодателями в следующем месяце.

Между тем добыча на ливийском месторождении El-Feel, прерванная в субботу из-за перебоев с энергоснабжением, была восстановлена в полном объеме, сообщает агентство Bloomberg со ссылкой на информированные источники.

# Sahib Məmmədov: İndiyədək sahibkarlara 4832 lisenziya verilib

Bunun 2676-sı yeni verilən, 2156-sı isə müddətsiz lisenziya ilə əvəz edilən lisenziyalardır.
AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dekabrın 20-də "Lisenziyalar və icazələr" portalının təqdimatında deyib.
Qeyd edək ki, İqtisadiyyat Nazirliyi tərəfindən 2015-ci il noyabrın 2-dən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziya tələb olunan fəaliyyət növləri üzrə lisenziyaların "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsinə başlanılıb.



# TANAP-ın ölçmə stansiyaları dekabrın sonunda təbii qazı almağa hazır olacaq

Bu barədə eksklüziv açıqlamasında TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.
S.Düzyol bildirib ki, TANAP-la Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üçün 56 düymlük 1350 kilometr uzunluğundakı boru kəmərinin inşası mexaniki olaraq tamamlanıb. Faza-0, yəni 2018-ci ilin iyununda Türkiyəyə ilk təbii qazın verilməsi üçün boru kəməri marşrutu üzrə xəndəyin qazılması, boruların düzülməsi və qaynaq işləri artıq yekunlaşıb. Faza-0 üzrə blok klapan və pig stansiyaları, eləcə də "Telecom-SCADA" binalarının inşası tamamlanıb.
"Faza-0 çərçivəsində inşa edilən 2 ədəd ölçmə stansiyası (MS1 və MS2) bu ayın sonunda təbii qazı qəbul etməyə hazır olacaq", - deyə TANAP-ın baş direktoru əlavə edib.
Qeyd edək ki, Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və oradan da Avropaya nəql edəcək TANAP "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan layihədir. Layihə iki fazada həyata keçirilir - Faza-0, o cümlədən Faza-1, yəni 2019-cu ilin sonunda Türkiyədən keçməklə Avropaya təbii qazın verilməsi üçün görülən işlər. Bu vaxtadək layihənin ümumilikdə 88 faizədək hissəsi icra edilib.
TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşəcək. Uzunluğu 1850 kilometr olan TANAP-ın Əskişəhərə qədər olan hissəsinin 2018-ci ilin ortasında istismara verilməsi nəzərdə tutulur. Layihənin dəyəri hazırda 7,99 milyard ABŞ dollarıdır. Lakin layihənin ilkin qiymətləndirilməsində bu rəqəm 11,7 milyard dollar idi. Bu da o deməkdir ki, layihənin icrası çərçivəsində indiyədək təxminən 3,8 milyard dollara qənaət edilib. TANAP üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək ümumilikdə 6,2 milyard dollar olacağı nəzərdə tutulur.
Boru kəmərinin Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir. Bundan başqa, TANAP 2x36 düym diametrli 18 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. TANAP-ın tikintisi üzrə ilk mərhələ sona çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var.
TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC - 58 faiz, "Botaş" - 30 faiz və BP şirkəti - 12 faiz.

# «Təmiz Şəhər» tərəfindən Balaxanı qəsəbəsinin yollarında əsaslı təmir-bərpa işləri aparılır

"Təmiz Şəhər" ASC tərəfindən Balaxanı qəsəbəsinin ümumi sahəsi 43 min kvadratmetr təşkil edən yollarında əsaslı təmir-bərpa işləri aparılır və asfalt örtüyü yenilənir. Bu işlər İqtisadiyyat Nazirliyi ilə Fransanın "CNIM S.A." şirkəti arasında Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun tikintisi zamanı bağlanmış podrat müqaviləsinə əsasən həyata keçirilən sosial layihə çərçivəsində reallaşdırılır.



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, yolların bərpasında asfaltın alt qatında Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda tullantıların yandırılması nəticəsində yaranan 460 tondan çox dib külündən istifadə olunub.
Qeyd edək ki, 2013-2015-ci illərdə isə bu sosial layihə çərçivəsində Balaxanı qəsəbəsində ümumi uzunluğu 87 kilometrdən artıq olan su xətti çəkilib, 5040 ədəd su sayğacı quraşdırılıb və 20 min nəfərdən çox Balaxanı sakini içməli su ilə təmin edilib.

# Barama ölkəmizi Seedstars Cənub-Şərqi Avropa Sammitində təmsil edib

Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi PAŞA Bankın dəstəyi ilə ölkəmizi Seedstars Cənub-Şərqi Avropa Sammitində təmsil edib. Azercell-in Barama mərkəzinin rəhbəri İmran Bağırov "Seedstars World" səfiri olaraq Ukraynanın paytaxtı Kiyevdə keçirilən beynəlxalq konfransda iştirak edib. İmran Bağırovla bərabər sammitə 2018-ci ilin aprel ayında İsveçrədə keçiriləcək Seedstars Sammitində ölkəmizi təmsil edəcək "Wake me up" layihəsinin startapı da qatılıb. İ.Bağırov Ukraynadan, Qazaxıstandan, Moldovadan və Gürcüstandan sammitdə iştirak edən startaplarla görüşlər keçirib və Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin fəaliyyəti və eləcə də, yerli startaplarımız haqqında geniş məruzə ilə çıxış edib.




Qeyd edək ki, sözügedən sammit dünyanın innovasiya və texnologiya sahəsində fəaliyyət göstərən ən qabaqcıl təmsilçilərini bir araya gətirir. 3 gün davam edən Seedstars Cənub-Şərqi Avropa Sammitində 600-dən çox nümayəndə iştirak edib. Sammitə qatılan iştirakçılar öz layihələri ilə çıxış ediblər. Tədbir zamanı keçirilən panel müzakirələrində regionda fəaliyyət göstərən startaplar müxtəlif mövzu və ideyalar ətrafında müzakirə aparıblar.
Məlumat üçün bildirək ki, Azərbaycanın telekommunikasiya sahəsinin lideri Azercell Telekom İsveçrənin "Seedstars" şirkəti ilə yaxından tərəfdaşlıq edir. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi Azərbaycanda sahibkarlığa dəstək vermək məqsədilə 2009-cu ildə Azercell şirkəti tərəfindən yaradılmış layihədir. Barama əsasən informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən startapları və yaranmaqda olan şirkətləri startapları dəstəkləyərək onların müstəqil şirkətlər kimi fəaliyyət göstərməsinə kömək edir.

# Azərbaycanda 2017–ci il sabitləşmə, 2018-ci il isə iqtisadi inkişaf ili kimi tarixə düşəcək



Dekabrın 19-da İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) Xəzər Universitetində "Azərbaycanda iqtisadi islahatlar: nailiyyətlər və perspektivlər" mövzusunda ictimai mühazirə təşkil edib.
AZƏRTAC xəbər verir ki, Xəzər Universitetinin iqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov bildirib ki, Azərbaycanda qeyri-neft sektorunun və ixracın şaxələnməsində, insan kapitalının inkişafında Strateji Yol xəritələrinin rolu böyükdür. Onun sözlərinə görə, Xəzər Universitetində bu mövzuda mühazirənin təşkil olunması ölkədə aparılan islahat prosesi barədə ətraflı məlumatların təqdim edilməsi, gənclərin maarifləndirilməsi baxımından əhəmiyyətlidir.
Xəzər Universitetinin rektoru Hassan Niknafs bildirib ki, universitetin tələbələri beynəlxalq proqram və layihələrdə fəal iştirak edir. Bu səbəbdən də ölkədə aparılan islahatların onlara düzgün təqdim olunması Azərbaycanın müsbət imicinin formalaşmasına öz təsirini göstərir.
Daha sonra İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı müəllim-professor, eləcə də tələbə heyətinə "Azərbaycanda iqtisadi islahatlar: nailiyyətlər və perspektivlər" mövzusunda ictimai mühazirə təqdim edib.

# "SOCAR Energy Holdings" Avstriyanın "A1" yanacaqdoldurma məntəqələri şəbəkəsini alıb

SOCAR-ın İsveçrədəki törəmə şirkəti "SOCAR Energy Holdings" Səhmdar Cəmiyyəti Avstriyanın pərakəndə yanacaq satışı bazarına daxil olaraq "A1" şirkətinə məxsus yanacaqdoldurma məntəqələrini (YDM) və neft yağlarının ticarəti sahəsində fəaliyyət göstərən "Pronto Oil" firmasını alıb.
Şirkətdən bildirilib ki, "SOCAR Energy Holdings" son 5 ildə İsveçrədə əldə etdiyi gəlirlərin bir hissəsini daunstrimdəki sərmayələrini artırmaq və böyütmək məqsədilə investisiya layihələrinə yatırır, əvvəlki illərdə qoyulan investisiyaları ilə sinerji yaradaraq, onları daha da genişləndirir. Burada əsas hədəf gələcəkdə gəlir mənbələrini şaxələndirməklə, yeni bazarların potensialından yararlanmaq və Azərbaycan iqtisadiyyatına daha böyük gəlirlər qazandırmaqdır.
Son dövrdə SOCAR İsveçrədə orta miqyaslı şirkətlərlə diler və təchizat əlaqələrinin genişləndirilməsi, ortaq kart sisteminin işlədilməsi və sair kimi müxtəlif tərəfdaşlıq layihələrini həyata keçirməkdədir. İsveçrəyə yaxın olan Avstriya bazarında tanınmış ailə biznesi olan "A1" şəbəkəsinin alınması bu genişlənmə strategiyasının məntiqi davamı və növbəti addımı olub.
Avstriyanın Ştiriya əyalətinin yanacaqdoldurma bazarında aparıcı rola malik "A1" şirkətinin ölkə üzrə 82 YDM-i fəaliyyət göstərir. Şirkətin 150 nəfər əməkdaşı var. "A1"lə yanaşı, SOCAR həm də Graz şəhərində yerləşən və ticarət sahəsində fəaliyyət göstərən "Pronto Oil Mineralölhandels GmbH" şirkətini əldə edib. "A1" şəbəkəsi və "Pronto Oil Mineralölhandels GmbH" şirkətinin idarə edilməsi məqsədilə "SOCAR Energy Austria" MMC təsis edilib. "A1" şəbəkəsi və "Pronto Oil Mineralölhandels GmbH" şirkətinin əməkdaşları işlərində saxlanılacaq və "SOCAR Energy Austria" MMC-nin tərkibində fəaliyyətlərini davam etdirəcəklər. "A1" brendinin Avstriya bazarında artıq yüksək səviyyədə tanındığı nəzərə alınaraq, SOCAR satın aldığı YDM-ni həmin brend altında istismar etməyi planlaşdırır.
"SOCAR Energy Holdings" Səhmdar Cəmiyyətinin rəhbəri Edqar Baxmann yeni layihədən məmnunluğunu belə ifadə edib: "A1" şəbəkəsinin alışı Avstriyada SOCAR qarşısında yeni üfüqlər açır, yeni kommersiya imkanları yaradır və bir aparıcı enerji şirkəti kimi onun bu ölkədə mövqeyini möhkəmləndirir."
"A1" YDM şəbəkəsinin və "Pronto Oil Mineralölhandels GmbH" firmasının keçmiş sahibi Qerhard Annavitt belə deyib: "Həm "A1", həm də "Pronto Oil" şirkətlərinin işini uğurla davam etdirmək üçün SOCAR ən uyğun namizəddir. Şirkətimi sataraq onu yüksək keyfiyyətli xidmət təklif edən qabaqcıl və innovativ bir şirkətə təqdim edirəm. Fikrimcə, SOCAR bu şirkətləri mənim də arzu etdiyim səmərəli tərzdə davamlı idarə edəcək".

# Azercell ölkədə ilk VoLTE texnologiyalı zəngi reallaşdırdı

***Mobil Telekom bazarının lideri özünün əsas texniki tərəfdaşı Ericsson şirkəti ilə birgə simsiz rabitənin imkanlarını genişləndirməkdə davam edir.***

Azərbaycan mobil rabitə bazarının lider mobil operatoru Azercell Telekom telekommunikasiya sektorunda daha bir yeniliyə imza atdı. Ölkəmizin mobil rabitə bazarına GSM texnologiyası, öncədən ödəmə sistemi, mobil internet xidmətləri, metropoliten ərazisində şəbəkənin qurulması, 24/7 Telefon Mərkəzi, həftənin 7 günü fasiləsiz ön ofis xidmətləri, M2M xidmətləri, 1 nöqtədə 3 xidmət göstərən Azercell Ekspres ofisləri, mobil müştəri xidmətləri, onlayn müştəri xidmətləri və sosial mediada müştəri xidmətləri, mobil elektron imza xidməti "Asan İmza" və 4G xidmətini təqdim edən Azercell bu dəfə ilk VoLTE (LTE texnologiyası üzərindən zəng) zəngi reallaşdırdı. "Bakutel 2017" sərgisində Azercell rabitə texnologiyaları və xidmətləri sahəsində dünya lideri Ericsson şirkəti ilə birgə VoLTE texnologiyasının açıq nümayişini həyata keçirdi və bu Azərbaycanın kommersiya şəbəkəsində edilmiş ilk VoLTE zəng oldu. Ericsson şirkəti VoLTE zəngini sınaqdan keçirmək üçün lazım olan bütün texniki həlləri, o cümlədən İMS platforması, təkmilləşdirilmiş verilənlər şəbəkəsi və radio rabitə avadanlığı təmin etdi.
Nəzərinizə çatdıraq ki, VoLTE texnologiyası 4G (LTE) şəbəkəsi vasitəsilə səsli zənglər həyata keçirməyə və abunəçilərə ən yüksək keyfiyyətli (HD) səsli və video zəng xidmətlərindən faydalanmağa imkan verir. LTE şəbəkəsində məlumatlar yüksək keyfiyyətlə ötürüldüyü üçün VoLTE zəngləri HD keyfiyyətə malikdir və heç bir arxa səs effekti yaratmır. Bundan əlavə, VoLTE imkanlarını dəstəkləyən mobil qurğular bu texnologiyanı dəstəkləyir və heç bir kənar əlavənin (OTT) tətbiq olunmasını tələb etmir. VoLTE texnologiyası vasitəsilə bir mobil telefondan digərinə zəng vasitəsilə qoşulmaq üçün tələb olunan vaxt da əhəmiyyətli dərəcədə azdır.




VoLTE texnologiyası, həmçinin abunəçilərə zəng edərkən və ya zəngləri qəbul edərkən belə 4G şəbəkəsində qalmağa imkan verir. Bu o deməkdir ki, istifadəçi eyni zamanda həm səsli zəngdən yararlana, həm də digər tətbiqlər üçün yüksək sürətli internetdən faydalana bilər.

# Anlaşma Memorandumu imzalandı

Azərbaycanın bank sektorunda kibertəhlükəsizlik, kibercinayətkarlıq hallarının qarşısının alınması, İnformasiya Texnologiyaları təhlükəsizliyinin təmin edilməsi və maliyyə sektorunun əməkdaşlarının İT təhlükəsizliyi sahəsində bilik səviyyəsinin artırılması istiqamətində həyata keçirilən tədbirlərin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (Palata) və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi (Agentlik) arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu Palatanın Baş icraçı direktoru İbrahim Alışov və Agentliyin rəis müavini Azər Əhədov imzalayıb.




Tədbirdə açılış nitqi ilə çıxış edən Palatanın Baş icraçı direktoru İ.Alışov bildirib ki, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi ilə əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş fəaliyyət planına əsasən, Agentlik tərəfindən İT təhlükəsizliyi sahəsində Palataya texniki dəstəyin göstərilməsi, daxili informasiya təhlükəsizliyi siyasətinin (qaydalarının) formalaşdırılması, eləcə də E-poçt təhlükəsizliyinin təmin edilməsi, bank hesabları ilə əməliyyatlarda trafikin qorunması və CSRF (Cross-Site Request Foregery) təhlükəsizliyi, proqram təminatında kənar resurslardan hazır kodların çağırılması və kənar kodların istifadəsinin yaratdığı təhlükələrin aradan qaldırılması, İT təhlükəsizliyinin təmin olunması üzrə təlimlərin keçirilməsi istiqamətlərində əməkdaşlıq nəzərdə tutulur.

İ.Alışov qeyd etdi ki, sadalanan istiqamətlər üzrə birgə əməkdaşlıq sayəsində maliyyə bazarlarının iştirakçıları yarana biləcək təhlükələrdən daim mühafizə olunacaq, bunun da nəticəsində vətəndaşlar təhlükəsiz maliyyə xidmətlərindən faydalana biləcəklər.

Palata ilə əməkdaşlıq təşəbbüsünü yüksək qiymətləndirən A.Əhədov bildirdi ki, bu əməkdaşlıq Palataya, onun nəzarət subyektlərinin hər birinə faydalı olacaq. Qarşılıqlı əməkdaşlıq çərçivəsində səyləri birləşdirməklə və bu sahədə uzun illər ərzində əldə edilən təcrübəni bölüşməklə qlobal və regional kibertəhdidlərlə mübarizədə daha böyük uğurlar əldə etmək mümkün olacaqdır.

A.Əhədovun sözlərinə görə, Memorandum çərçivəsində Palata və onun nəzarət subyektləri xüsusi interaktiv xidmət portalına qoşulmaqla informasiya təhlükəsizliyi sahəsində müvafiq istiqamətlər üzrə tələb olunan vacib məlumatları əldə edəcək, təhlükələr barədə xəbərdar olunacaq, informasiya təhlükəsizliyi kitabxanası və "İnformasiya Təhlükəsizliyi" jurnalının xidmətlərindən yararlana biləcəklər.

Bundan əlavə, Agentlik tərəfindən digər dövlət orqanlarına göstərilən təhlükəsiz İnternet, DNS, Hosting, E-poçt, həmçinin istifadəçilərin təhlükəsizliyi üçün antivirus həlləri kimi xidmətlər Palata və onun nəzarət strukturlarına təklif ediləcəkdir.

**www.fimsa.az**

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

**2018-ci il 1 yanvar** tarixindən etibarən statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim edilməlidir.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicinin vəzifələrinə aid edilmişdir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura "Onlayn rejimdə" Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən, "Asan imza") vasitəsi ilə elektron qaydada tərtib edilərək və ya "Lazımi proqramlar"dan istifadə edilməklə "Oflayn rejimdə" tərtib edildikdən və elektron imza (o cümlədən, "Asan imza") vasitəsi ilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- *birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,*
- *ikinci dəfə yol verdikdə **20 faizi,***
- *üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.*

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***Azərbaycan Respublikası Vergilər Nazirliyi***

# Kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi ilə bağlı tədqiqat başlayır

Bunu Dünya Bankının nümayəndəsi, kənd təsərrüfatı iqtisadı üzrə mütəxəssis Bekzod Şamsiyev bildirib.



O qeyd edib ki, 6 ay müddətində araşdırılacaq regionda mövzu ilə bağlı hazırkı vəziyyət, dünyada mövcud innovativ texnologiyalar və bu texnologiyaların araşdırılan ölkələrdə tətbiqi imkanları öyrəniləcək və tövsiyələr hazırlanacaq.

Araşdırılacaq innovativ texnologiyalar xəstəliklərin monitorinqi, investisiya ehtiyaclarının öyrənilməsi, bazar imkanlarının asanlaşdırılması, təchizat zəncirinin təşkili, ekoloji qiymətləndirmə kimi bir neçə qrupu əhatə edəcək.

"Bu texnologiyalar dünyada yeni deyil. Sadəcə olaraq, getdikcə ucuzlaşır və daha əlçatan olur. Biz bu texnologiyalardan kənd təsərrüfatı məhsulları istehsalçılarının və onlara xidmət göstərənlərin faydalanmasına çalışacağıq", - deyə Dünya Bankının nümayəndəsi diqqətə çatdırıb.

Qeyd edək ki, dekabrın 19-da Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov Dünya Bankının kənd təsərrüfatı üzrə tapşırıq qrupunun rəhbəri Bekzod Şamsiyev ilə görüşüb.

# Yeni ilə Yeni İSMA BİKE ilə son 10 gün

"AtaBank" ASC-nin "Hədiyyəli Yeni İl" kampaniyası çərçivəsində sığortalı əmanət yerləşdirən müştərilərin kampaniyadan yararlanmaq üçün sadəcə 10 günü qalmışdır.




Əmanətçilərə müqavilə ilə birgə hədiyyələrin siyahısı təqdim olunur və müştərilər yerləşdirdikləri məbləğə uyğun olaraq hədiyyə seçimi edirlər.

Artıq kampaniya çərçivəsində 88 İsma Bike, 90 ədəd İphone X və müxtəlif hədiyyələr bankın əmanətçilərinə hədiyyə olunmuşdur.

Xatırlatmaq istərdik ki, "AtaBank"-da əmanət yerləşdirən müştərilərə veriləcək hədiyyələr aşağıdakılardır: İphone X, İsma Bike, Excelsior Hotel, Chinar Hotel & SPA, Excelsior Hotel Shamkir, Qalaaltı Hotel & SPA otellərində istirahət, müalicə və idman paketləri.

Kampaniya yalnız fiziki şəxslərə şamil olunur və yola saldığımız ilin son iş günü, yəni 29 dekabr 2017-ci il tarixinədək qüvvədədir.

Kampaniya şərtləri ilə daha ətraflı şəkildə tanış olmaq üçün 136 məlumat mərkəzi ilə əlaqə saxlaya bilərsiniz.

1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitallı, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında 31 filial və şöbəsi vasitəsilə korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# Ən çox partnyoru olan bank




Unibank daha bir sahədə fərqlənib. Bazardakı bank kartlarının müqayisəsi göstərib ki, ən çox cash back partnyoru olan Unibankdır.

"Hazırda 500-dən artıq partnyor mağaza və xidmət mərkəzlərində Unibank kartları ilə edilən ödənişlər zamanı kart sahibinin xərclədiyi vəsaitin bir hissəsi müştərinin hesabına geri qayıdır. Bank kartları içərisində yüksək faizli cashback qazandıran da Unibank kartlarıdır.

Bankın bütün əməkhaqqı kartları və eləcə də ALBALI PLUS kredit və ALBALI PLUS debet kart sahibləri partnyor mağazalarda alış-veriş edərkən, eləcə də xidmətlərdən istifadə edərkən, xərclədikləri vəsaitin 30%-dək hissəsi karta geri qayıdır.

Unibank kart sahibləri indiyədək bu layihə çərçivəsində 150 min manatdan çox cashback qazanıblar. Partnyor şəbəkəsində istənilən sektordan – supermarket, geyim, aksesuar, parfümeriya, texnika, turizm, səhiyyə və tibb, avto, ev əşyaları və digər tərəfdaşları tapmaq mümkündür.

# Moody's "Bank of Baku"nun reytinqini təsdiq edib



"Moody's Investors Service" beynəlxalq kredit reytinqi agentliyi Azərbaycanın "Bank of Baku" ASC-nin uzunmüddətli xarici və yerli valyuta ilə depozit reytinqini və kredit ödəmə qabiliyyətinin baza səviyyəsini (Baseline Credit Assessments - BCA) "Caa1"-dən "Caa3"-ə dəyişdirib.

Bundan başqa, Bankın kontragent riskləri üzrə reytinqi (CR Assessment) "B3"-dən "Caa2"-yə dəyişdirilib.

2015-16-da digər əksər banklar kimi, Bank of Bakunun da ödənməyən kreditlərə görə kredit xərcləri artmışdır. Gəlirlərin böyük hissəsi ödənməyən kreditlər üzrə ehtiyatların yaradılmasına yönəldilib, nəticədə yaranmış zərər Bankın kapitalının azalmasına səbəb olub. Hazırda vəziyyət sabitləşmiş, Bank of Baku bu il xeyli yeniliklər təqdim edərək bazarda öz mövqeyini qoruyub. Növbəti addım Bankın kapitalının artırılaraq minimal tələbin təmin edilməsidir.

Bu ilin iyun ayında Bank of Bakunun səhmdarları bankın kapitalının 91 milyon manat artırılması barədə qərar qəbul etmişdi. Moody's qeyd edib ki, Agentlik səhmdarların qəti planları, əlavə dəstəyi və digər yerli banklarla birləşmə planları barədə məlumatsızdır.

# İSMAYILLI BU GÜN



İsmayıllıda yeni iş yerlərinin açılması və əhalinin məşğulluğunu təmin etmək məqsədilə Keyvəndi kəndində iri heyvandarlıq təsərrüfatının, Heydər Əliyev prospektində beşmərtəbəli dördulduzlu hotelin, Tircan kəndi yaxınlığında Bədo İstirahət, Müalicə və Sanatoriya Mərkəzinin tikintisi davam etdirilir.

Bunu İsmayıllı rayon icra hakimiyyətinin başçısı, əməkdar elm xadimi Mirdaməd Sadıqov bildirib. O qeyd edib ki, Kürdmaşı kəndində "Buta" şirkətlər qrupu tərəfindən 3 min ton tutumu olan soyuducu kameranın tikintisi başa çatdırılıb və iki kamerada məhsul qəbuluna başlanıb. Qalan sahələrdə isə tikinti-quraşdırma işləri davam edir. İsmayıllı şəhərinin S.Ə.Şirvani küçəsində "Azərxalça" ASC tərəfindən Xalçaçılıq müəssisəsinin tikintisi başa çatıb və istehsalat fəaliyyətinə start verilib. Müəssisə tam gücü ilə işə düşdükdən sonra burada 170 nəfər toxucu işləyəcək. Hazırda obyektin həyətində abadlıq və yaşıllaşdırma işləri həyata keçirilir. Əhalinin mənzillə təminatını yaxşılaşdırmaq məqsədilə şəhərin M.F.Axundov küçəsində iki doqquzmərtəbəli yaşayış binasının tikintisi davam etdirilir.

## MEYVƏÇİLİK START GÖTÜRÜR



İsmayıllının Diyallı kəndində dəyəri 1200 min manat olan böyürtkən, moruq və s. giləmeyvələrin yetişdirilməsi üçün örtülü təsərrüfat təşkil edilib. Bundan başqa, 2017-ci ilin yaz mövsümündə Kəlbənd kəndində 7, Qalınçaq kəndində 31,5 hektar sahədə intensiv meyvə bağları salınıb. Eyni zamanda, Qubaxəlilli kəndi ərazisində 40, Tircan kəndində isə 7,5 hektar qoz bağı əkilib. Rayon mərkəzinə ən yaxın məsafədə yerləşən kəndlərdən olan Diyallı kəndi də prosesdən kənarda qalmayıb. Burada 3 hektar şaftalı, 5 hektar sahədə isə qoz bağı salınıb.

## "BƏDO" SUYU

Milli Elmlər Akademiyasının Geologiya İnstitutu tərəfindən İsmayıllı rayonunun Tircan kəndindəki "Bədo" adlı bulağın suyunun tərkibi öyrənilib. Böyrək, mədə-bağırsaq və öd kisəsində xəstəliyi olan insanlar köhnəlmiş yumurta iyi verən bu sudan içib şəfa tapır, həmçinin bu su həzm prosesinə də kömək edir. Laborator analizin nəticəsindən aydın olub ki, "Bədo" hidrokarbonatlı, kükürd qazlı ($H^2S$) mineral sudur.

İsmayıllı əhalisi "Bədo"-nu iyinə görə Dəvəçi rayonundakı Qalaaltı quyusunun suyu ilə eyni tipli hesab edir. Lakin alimlər onların tərkibində xeyli fərqlərin olduğunu qeyd edir. Belə ki, Qalaaltı suyunda maqnezium, həll olmuş üzvi maddələr - fenol, alifatik turşular, bitum və s. tərkiblər vardır, "Bədo"da isə yoxdur.



# "Şahdağ"a 3000 nəfərlik axın!



Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan və Azərbaycan turizm tarixində ən genişmiqyaslı layihə hesab olunan Şahdağ Turizm Mərkəzində sayca altıncı qış mövsümü dekabr ayının 16-dan etibarən açıq elan edilmiş, ağappaq qarla örtülmüş Şahdağ yamacları xizək həvəskarlarının istifadəsinə verilmişdir.

Bu tarix xizək mövsümünün açılışını həsrətlə gözləyənlər üçün bayram əhval-ruhiyyəsi ilə yadda qalmış, açılış gününə özəl olaraq yerli brendlərdən ibarət qış yarmarkası ilə yanaşı, canlı musiqi ilə müşaiyət olunan konsert proqramı təşkil olunmuşdur.

Nazirliyin yaydığı məlumata görə, ilk dəfə olaraq məhz açılış günü mərkəzdə bu qədər izdiham yaşanaraq, gün ərzində mərkəzi 3000-dən çox turist ziyarət etmişdir.

Keçən il qış mövsümü ərzində 95 000-dən çox turist qəbul edən mərkəzə üz tutan turistlərin, eləcə də xarici turistlərin sayı ilbəil artdığından bu mövsümün keçən ilki rəqəmləri üstələyəcəyi proqnozlaşdırılır. Açılış günü maraqlı anlar yaşanmış, üç il əvvəl məhz Şahdağda tanış olan cütlük toy mərasimlərini qeyd etmək üçün bəyaz Şahdağ yamaclarını seçmişlər.

Hər il olduğu kimi, bu il də xizək və snoubord sürmə ilə yanaşı, 13 müxtəlif qış əyləncəsi ilə də turistlərin ixtiyarına verilmişdir. Ənənəvi əyləncələr sırasına parapalan (dağ paraşütü) xidməti də əlavə edilmişdir. Qeyd edək ki, bütün əyləncələrdən istifadə zamanı turistlər hər cür təhlükəsizlik ləvazimatları ilə təmin edilir və daim bələdçilərin nəzarəti altında olurlar.

# Azərbaycanda gələn ildən "Tatra" yük maşınlarının istehsalına başlanacaq

Azərbaycanın Çexiyadakı səfirliyində Gəncə Avtomobil Zavodu və Çexiyanın "Tatra" şirkəti arasında Azərbaycanda bu şirkətə məxsus yük maşınlarının istehsalı barədə əməkdaşlığa dair Memorandum imzalanıb.

Səfirlikdən Trend-ə verilən məlumata görə, memorandumu Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyev və "Tatra" şirkətinin idarə heyətinin sədri Petr Rusek imzalayıb. Əldə edilmiş razılaşmaya əsasən, 2018-ci ildən etibarən Azərbaycanda müxtəlif növ "Tatra" yük maşınlarının istehsalına başlanacaq.

Memorandumun imzalanması münasibətilə keçirilən tədbirdə Azərbaycanın Çexiyadakı səfiri



Fərid Şəfiyev, Azərbaycan-Avropa Ticarət Palatasının rəhbərliyi və mətbuat nümayəndələri iştirak ediblər. Tədbirin açılışında çıxış edən F.Şəfiyev "Tatra" şirkətinin Azərbaycanın sənaye sahəsinə daxil olmasını əlamətdar hadisə kimi qiymətləndirib və eyni zamanda Çexiya şirkətinin Gəncə Avtomobil Zavoduna göstərdiyi etimadı təqdirəlayiq adlandırıb. Səfir, həmçinin sözügedən Memorandumun imzalanmasının Azərbaycanın qeyri-neft sektoruna töhfə verəcəyinə ümidvar olduğunu qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

# TƏRTƏR RAYONU HƏDƏFƏ DOĞRU İNAMLA İRƏLİLƏYİR

İlin son günlərində havaların əlverişli keçməsi pambığın vaxtında və itkisiz yığılmasına imkan vermiş, məhsul, necə deyərlər, son qozasınadək toplanıb təhvil verilmişdir. Bol məhsul əldə edən rayonların sırasında Tərtər rayonunun adı da çəkilir. Burada pambıq əkini sahəsində illərin təcrübəsi vardır ki, bu da kənd əməkçilərinin karına çatır. Son illər pambıqçılığa dövlət tərəfindən göstərilən hərtərəfli diqqət və qayğı, bu sahənin rentabelli olması, yaxşı gəlir gətirməsi kənd əməkçilərinin maraq və həvəsini artırmışdır. Artıq rayonda qabaqcıl fermer təsərrüfatları intişar tapıb, ön mövqelərə çıxan kəndlərin adı çəkilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Tərtər rayonunda aqrar sektorda görülən işlərdən razılıq ifadə edərək demişdir: «Tərtər zəhmətkeşlərinin təcrübəsi digər bölgələrdə də tətbiq olunmalıdır. Çünki heç də hər bir rayonda məhsuldarlıq sizdə olduğu kimi deyil.

Ona görə burada görülən aqrotexniki tədbirlər, suvarma və texnikadan istifadə ilə bağlı təcrübə gərək təhlil edilsin və məhsuldarlığı az olan rayonlara tövsiyə kimi göndərilsin».

Cənab prezidentin qeyd etdiyi kimi, işlərin yüksək şəkildə təşkilinin nəticəsidir ki, Tərtər pambıqçıları cari mövsümdə hər hektarın məhsuldar-lığını 38 faizə çatdırmağa müvəffəq olmuşlar. Halbuki, respublika üzrə orta göstərici 25-30 sentner təşkil edir. Yüksək məhsul götürdüyünə görə hər bir fermer məmnundur. Hər şeydən öncə, onlar bilirlər ki, əməkləri hədər getməyib, yaxşı qazanc əldə edə biliblər. Məhz pambıqçılığı üstün mövqeyə çıxaran əsas amil də budur. Doğrudur, Tərtərdə bostan və tərəvəz bitkilərinin yetişdirilməsi sahəsində də zəngin təcrübə vardır. Rayonda taxıl əkini də geniş yayılıb. Lakin ortada olan fakt budur ki, son iki ildə pambıqçılıq bütün sahələri üstələyib. Sanki kəndlər bir-biri ilə yarışır. Qabaqcıl kəndlərin adları da çəkilir: Aşağı Qaraqoyunlu, Köçərli, Qaradağlı, Əskipara… Həmin kəndlərdə əvvəlki illərə nisbətən pambıq əkin sahələrinin həcmi xeyli genişləndirilib, məhsuldarlıq artırılıb. Faktlara müraciət edək.

2017-ci ildə rayonda kənd təsərrüfatı məhsullarının ümumi həcmi 7,8 faiz artaraq 52 milyon 118 min manat təşkil edib ki, bunun 32 milyon 458 min manatı bitkiçilik, 19 milyon 661 min manatı heyvandarlıq sahəsində formalaşıb.

Ölkə başçısının tapşırığı və göstərişlərinə uyğun olaraq, son illər Tərtər rayonunda strateji və ixracyönümlü məhsul olan pambıq və şəkər çuğunduru istehsalının genişləndirilməsi istiqamətində konkret tədbirlərin görülməsi nəticəsində texniki bitkilərin əkini əvvəlki ilə nisbətən 2 dəfə artmışdır. Cari ildə 3123 hektarda pambıq, 1541 hektarda şəkər çuğunduru, 1637,4 hektarda günəbaxan əkilmişdir. 2016-cı ilə nisbətən pambıq əkini 3 dəfə, şəkər çuğunduru əkini 30 faiz, günəbaxan əkini 78,4 faiz artmışdır.

2017-ci ildə 843 təsərrüfat subyekti ilə müqavilə bağlanmış, pambıq əkini və yığımı mövsümünə 2800 nəfər işçi cəlb olunmuşdur. Təsərrüfatlarda işin düzgün təşkili, aqrotexniki qaydalara əməl olunması, suvarmanın və digər zəruri tədbirlərin vaxtında və keyfiyyətlə görülməsi nəticədə Tərtər rayonunu pambıq üzrə ümumi məhsul yığımında birincilər sırasına çıxarmışdır.

Belə ki, bu günə kimi 8000 tonadək pambıq yığılıb təhvil verilib ki, bu da ötən ildəkindən 7 dəfə çoxdur. Əkin sahələri də artırılıb. Ötən il 1636 hektar, bu il isə 3123 hektar. Gələcəkdə əkin sahələrinin həcmi daha da genişləndiriləcək.

Rayon iqtisadiyyatında nisbətən yeni sahə olsa da, şəkər çuğunduru istehsalı ilbəil artırılır. Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, ötən il hər hektardan əldə edilən nəticəyə görə, Tərtər rayonu birinci yerə çıxmışdır. Tərtərlilər bu il də yüksək nəticələr qazanmaq üçün əzmkarlıq və hünər göstərirlər. Çuğundur əkini artırılaraq 1541 hektara çatdırılıb, ilkin məlumata görə, indiyədək 54,5 min ton məhsul yığılıb təhvil verilib. Bu rəqəmin xeyli artacağı gözlənilir.

Cari ilin məhsulu üçün 9507 hektarda taxıl əkilmişdir ki, bunun da 6909 hektarı buğda, 2598 hektarı arpa olmuşdur. Zəmilərdən 34580 ton məhsul yığılmışdır. Hər hektarın orta məhsuldarlığı buğda üzrə 38,3 sentner, arpa üzrə 31,4 sentner təşkil etmişdir ki, bu da əvvəlki illərin məhsuldarlığından xeyli çox olmaqla, respublika üzrə orta göstəricini üstələyir. Bundan başqa, rayonda 1386 ton dən üçün qarğıdalı, 3880 ton dən üçün günəbaxan, 5448 ton kartof, 13987 ton müxtəlif növ tərəvəz, 120 ton bostan bitkiləri, 17,2 ton noxud, 1624 ton meyvə və s. istehsal edilmişdir.

Heyvandarlığın inkişafını təmin etmək üçün yonca sahələrindən 95895 ton, digər sahələrdən yem üçün 310 ton quru ot tədarük edilmişdir. «Aqrolizinq» ASC güzəştli şərtlərlə istehsalçılara 1677 ton mineral gübrə satmışdır. Əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də rayonda heyvandar-lığın inkişaf etdirilməsi və məhsuldarlığın artırılması üçün işlər diqqət mərkəzində saxlanılmışdır.

Hazırda rayonda 27,1 min başdan çox iri mal, 70,6 min başdan çox davar bəslənilir. İri malın sayı ötən ilin müvafiq dövrünə nisbətən 474 baş artmışdır. Cari ildə 2134 ton diri çəkidə ət, 15,3 min ton süd, 7 milyon 675 min ədəd yumurta, 125 ton yun istehsal edilmişdir. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 2,3 faiz, yun istehsalı 5,3 faiz artmışdır.

Yuxarıda göstərilən rəqəmlərdən aydın olur ki, Tərtər rayonu kənd təsərrüfatı sahəsində yüksəliş illərini yaşayır. Lakin bununla yanaşı, rayonda sənaye istehsalında da dinamika özünü göstərmiş, tikinti-quruculuq və abadlıq işləri geniş vüsət almışdır. Son illər Azərbaycanda uğurla icra olunan regional inkişaf proqramları nəticəsində Tərtər rayonunun siması köklü şəkildə dəyişmişdir.

Tərtər şəhərində ümumi sahəsi 1200 kvadratmetr olan ikimərtəbəli, müasir standartlara cavab verən Tarix Diyarşünaslıq Muzeyi tikilmişdir. Hazırda binanın daxilində dizayn və tərtibat işləri görülür. Tərtər çayı, sahillərində 5 hektar ərazidə yeni park salınması işləri davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, 18 ədəd çoxmənzilli yaşayış binasının təmiri ilə bağlı Tərtər RİH-nə 691 min manat vəsait ayrılıb. Bundan əlavə, 24 çoxmənzilli yaşayış binasının əsaslı təmiri məqsədilə 3 milyon manat əlavə vəsait yönəldilib. Həmin binaların təmirinə başlanılıb. Artıq binaların dam örtüyü yenidən qurulub, fasad, giriş və blok hissələrində suvaqlama və rəngləmə işləri görülür.

Rayonda 1170 köçkün ailəsi üçün yeni qəsəbənin tikintisi başa çatıb. Şıxarx qəsəbəsində, Həsənqaya və Çaylı kəndlərində məskunlaşmış 78 məcburi köçkün ailəsinə yaşadıqları həyətlərdə fərdi yaşayış evləri tikilib. Şıxarx qəsəbəsi ərazisində «Marağa-150» tarixi abidə kompleksinin ətrafında abadlıq-quruculuq işləri aparılıb. Tərtər-Şıxarx avtomobil yolunun sağ və sol hissələrində yaşıllıq zolaqları salınıb. Rayonda 24 min əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən Tərtər-Seyidimli-Qaradağlı-Sarov avtomobil yolunun tikintisi başa çatmışdır. Həmin yolun 18-ci kilometrində İncə çayı üzərində yerləşən, qəzalı vəziyyətdə olan körpü yenidən tikilib istifadəyə verilmişdir. Cənab Prezident İlham Əliyev bu il noyabrın 28-də Tərtər rayonuna etdiyi tarixi səfər zamanı adıçəkilən avtomobil yollarının, Tarix Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmiş, həmçinin 1170 nəfər məcburi köçkünün yaşadığı yaşayış kompleksində və «N» saylı hərbi hissədə yaradılan şəraitlə yaxından tanış olmuşdur. Səfər zamanı cənab prezident son illər Tərtərdə kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişafı istiqamətində görülən işlərə yüksək qiymət verərək demişdir: «Düzdür, indi plan yoxdur, ancaq hədəf var. Çox şadam ki, Tərtər o hədəfə artıqlaması ilə çatıb. Tərtər hədəfi təqribən 25 faiz üstələdi. Bu, çox sevindirici haldır. Kənd təsərrüfatının digər sahələrində də yüksək nəticələr var».




Pambıq yığımı sona çatar-çatmaz fermerlər yeni əkin sahələrində hazırlıq işlərinə başlayıblar. Bunun isə səbəbi var. Axı, strateji məhsul sayılan pambıq onların düşündüklərindən də çox qazanc gətirir. Gəlir artdıqca, becərmə üsulları da təkmilləşdirilir, texnoloji yeniliklər tətbiq olunmağa başlayır. Kənd əməkçisi təhvil verdiyi məhsulun pulunu elə həmin gün də ala bilir. Belə olan halda cari işlərin görülməsi, əkinə hazırlıq işlərinin aparılması asanlaşır. Fermerlər razılıq edib deyirlər ki, onlar üçün artıq indidən konkret torpaq sahələri ayrılıb. Fermerlər taxıl da əkirlər, bostan-tərəvəz bitkiləri də yetişdirirlər, ancaq əsas diqqət pambıqçılığa verilir. Əslində bu gün regionlarda kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində ixtisaslaşma prosesi gedir. Bu müsbət tendensiya hər bir rayonu, kəndi, fermer təsərrüfatını iqtisadi yüksəlişə çəkib aparır. Müasir bazar prinsiplərinə uyğunlaşmayan təsərrüfat subyektləri rəqabətə dözüm gətirə bilməz. Tərtərlilər bu sadə fəlsəfəni yaxşı dərk edir və işlərini yeni tələb və çağırışlara uyğun şəkildə qurmağa çalışırlar.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri, Tərtər rayonu**

# Müəssisədə istehsal xərclərinin idarə edilməsinin informasiya təminatı və onun xarakterik xüsusiyyətləri

**(əvvəli ötən sayımızda)**

**II hissə**

Daha çox xarici maraqlı tərəfdaşlar və ya istifadəçilər (kreditorlar, səhmdarlar, təchizatçılar, vergi orqanları və s.) üçün hazırlanan maliyyə uçotundan fərqli olaraq, idarəetmə və xərc-uçot məlumatlarının istifadəçiləri daxili icraçılardır. Bu baxımdan maliyyə və xərc uçotunda tələb olunan informasiyanın xarakterinin fərqləndirilməsi olduqca böyük əhəmiyyətə malikdir. Bu fərqlilik aşağıdakı kritik faktorlarda öz istinadını tapmışdır (cədvəl 1).

| Kritik faktorlar | Maliyyə-uçot | Xərc uçotu |
|---|---|---|
| • İnformasiya istifadəçiləri<br>• Əsas kriterya<br>• Uçot sisteminin müəyyənləşdirilməsi<br>• Uçotun aparılmasının müəyyənləşdirilməsi | • Xarici istifadəçilər (investorlar, kreditorlar və s.)<br>• Müqayisəlilik, qərarlar üçün relevantlılıq (investorlar üçün)<br>• Beynəlxalq standart müəyyən edən qruplar<br>• Standartlar (qaydalar) | • Daxili istifadəçilər (icraçılar, menecerlər və s.)<br>• Qərarlar üçün releventlıq (menecerler üçün)<br>• Menecerler<br>• Qərarların qəbul edilməsinə relevantlıq |

**Şəkil 1. Maliyyə və xərc-uçot informasiyası arasında fərqlər**

üzrə əlavə olunan xərc və ya dəyər barədə uçot məlumatları müəssisənin və ya ayrı-ayrı təsərrüfat fəaliyyətləri üzrə rəqabət qabiliyyətinin artmasına imkan yaradır. Bu baxımdan məhsulun istehsalı və realizasiyası ilə bağlı olan hər təsərrüfat-əməliyyat prosesi nəticəsində formalaşan əməliyyat xərcləri barədə relevant uçot məlumat sisteminin olması müasir biznes şəraitinin ayrılmaz tərkib hissəsidir (şəkil 1).

Xərclərin effektiv uçot məlumatlarının təşkili və bunun əsasında idarə edilməsində bir strateji alət maraqlı bazar agentləri ilə - təchizatçılarla, müştərilərlə və digər rəqib tərəfdaşlarla münasibətlərinin daha aydın başa düşülməsinə geniş imkan yaradır kı, bu da sonda idarəetmənin səmərəliliyinin artırılmasına xidmət edir.

Tədqiqat və inkişaf mərhələsində müəssisə yeni məhsulun layihələndirilməsində daha çox xərc effektivliyinin təmin edilməsinə fokuslanır. Bu mərhələdə məhsul istehsalında istifadə olunacaq alternativ materiallar barədə qərarların qəbul edilməsi üçün xərc-uçot məlmatlarına böyük ehtiyac duyulur. Beləliklə, istehsaldan öncə aparılan elmi-tədqiqat, təcrübə-konstruktor və layihə-axtarış işləri üzrə effektivliyin yüksəldilməsi, hər şeydən öncə, bu mərhələdə əldə edilmiş uçot məlumatları ilə bilavasitə bağlıdır.

Məhsulun layihələndirilməsi mərhələsində xərclərin uçotunun qarşısında duran ən vacib vəzifə məhsul üzrə aparılan detallı spesifikasiyalar, eləcə də istehsalın




**Şəkil 2. Dəyər zəncirinin aşağıdakı mərhələləri vardır**

İdarəetmə uçotu məqsədləri üçün xərclərin uçotu GAAP, İFRS standart və qaydalarına uyğun deyil, müəssisənin rəhbərliyinin (menecerlərin) maraqlarına uyğun hazırlanır. Bu, onunla əlaqədardır ki, maliyyə hesabatları məqsədləri üçün hazırlanan faktiki xərc məlumatlarından fərqli olaraq, idarəetmə qərarları üçün daha çox strateji xarakterli olduğu üçün gələcək fəaliyyət xərclərinin qiymətləndirilməsi olduqca vacibdir.

İdarəermə uçotu məqsədləri üçün müəssiənin məhsul istehsalı və realizasiya proseslərinin hər bir mərhələsi və ya dəyər zəncirinin hər bir mərhələsi üzrə uçot məlumatlarına ehtiyac duyulur.

Dəyər zənciri istehlak məqsədləri üçün xammalın son hazır məhsul və xidmətlərə çevrilməsi üçün baş verən bütün təsərrüfat əmliyyatlarından ibarətdir.

Dəyər zəncirinin hər bir mərhələsi kimi dəyər zənciri analizi müəssisənin rəqabət üstünlüklərinin daha da dərindən mənimsənilməsində, mal-material tədarükü-istehsal-əmtəə və xidmətlərin satışı tsikli üzrə baş verən əməliyyatların rəqabətliliyinin müəyyənləşdirilməsində, istehsal proseslərinin mərhələləri üzrə dəyərin əlavə edilməsi, eyni zamanda, resurslardan istifadənin optimallaşdırılması imkanlarının aşkar edilməsində istifadə olunur. Bununla yanaşı, dəyər zənciri analizi müəssiənin mürəkkəbliyi ilə bağlı baş verən əməliyyatlar üzrə dəqiq informasiyanın əldə edilməsidir. Məhsulun layihələndirilməsi onun istehsalı üzrə çəkiləcək xərclər üzərində əhəmiyyətli təsirə malik olduğu üçün məhz bu mərhələdə xərclərin uçotunun ənənəvi deyil, nisbətən yeni olan “ABC – fəaliyyət əsaslı” xərc-uçot sistemi üzrə aparılması məqsədəuyğun olardı. Belə ki, yalnız bu halda dəyər zəncirinə məhsulun layihələndirilməsi ilə bağlı əlavə olunan çoxsaylı funksiyalar üzrə sərf edilən resurslar barədə etibarlı informasiya əldə etmək olar. Ümumilikdə, ABC uçot sistemi menecerləri daha geniş informasiya ilə təmin etməklə, onlara məhsulun layiləndirilməsinin hər bir prosesi ilə bağlı qərarların etibarlı informasiya əsasında verilməsinə imkan yaradır.

Satınalma prosedurlarında xərclərin uçot məlumatları təchizat zəncirində effektivliyin artırılması məqsədləri üçün isifadə olunur. Belə ki, adətən, bu mərhələdə məhsula əlavə edilən dəyərin ölçülməsi üçün fəaliyyət indikatorlarından istifadə edilir ki, bu da əsas təchizat və biznes tərəfdaşlarının fəaliyyətinin qiymətləndirilməsində həlledici rol oynayır. Onu da vurğulamaq lazımdır ki, satınalma prosedurları, tələbatların diaqnostikası, tender və katirovka sorğularının keçirilməsi, sifarişlərin və mal-material spesifikasiyalarının işlənib hazırlanması, etibarlı biznes partnyorlarının seçilməsi üzrə baş verən hər bir əməliyyatdan yaranan xərclər üzrə uçot məlumatlarının əldə edilməsi üçün hədəf kalkulyasiyası (target kostinq), fəaliyyət əsaslı kalkulyasiya kimi xərc-uçot sistemlərindən geniş istifadə olunur.

Dəyər zəncirinin istehsal mərhələsində xərc-uçot məlumatlarından istehsal edilən məhsulların istehsal maya dəyərinin müəyyən edilməsi və tanınması məqsədiləri üçün geniş istifadə edilir. Hazırda aparıcı istehsal müəssisələrində çox geniş təbiq edilən “Lean” istehsal texnologiyası ilə bağlı əldə edilmiş ən mühüm naliyyətlərindən biri də “İstehsal vaxtında” - Just in time innovasiyalı idarəetmə metodunun tətbiqidir. Bu metodun əsas üstünlüyü mal-material, yaxud inventarların minimum həddə saxlanılmasına nail olmaq üçün istehsal və satınalmaların lazım olduğu vaxtda dərhal həyata keçirilməsidir. Burada əsas məqsəd həm mal-materialların və digər istehsal resurslarının, həm də bitməmiş istehsal və hazır məhsulun saxlanılması ilə bağlı əməliyyat riskinə səbəb olan mənəvi köhnəlmə, anbarlaşdırma sahəsi, həmçinin bununla bağlı vergi və sığorta xərcləri kimi yaranan izafi məsrəflərin aradan qaldırılmasına fokuslanmaqdır. Xidmətlər sektorunda da istehsal sferasında olduğu kimi, xərc-uçot məlumatlarından göstərilən xidmətlər üzrə yaranan dəyərin artırılması məqsədləri üçün istifadə edirlər. Bunun üçün isə, ilk növbədə dəyərin yaradılmasında bilavasitə iştirak edən xidməti personalın effektivliyinin artılması gərəkdir. İstehsal mərhələsindən, xərc-uçot məlumatlarından, həmçinin imkanlardan effektiv istifadənin təmin edilməsi gələcək perspektivdə müəssisə üçün yaranacaq imkanların dəqiq başa düşülməsi və planlaşdırılmasının təmin edilməsi ilə əlaqədardır.

Dəyər zəncirinin növbəti mərhələsi hesab olunan marketinq mərhələsində aidiyyəti mütəxəssislər, adətən, hər bir istehlakçı qrupu üzrə mənfəətliliyin qiymətləndirilməsi məqsədilə xərc-uçot məlumatlarına ehtiyac duyurlar. Uçot informasiya sistemlərində olan üstünlüklərdən istifadə etməklə hər bir biznes vahidi xidmət etdiyi çoxsaylı müştəri qrupları üzrə əldə edilən gəlir və xərc arasında analizlər apararaq, onun üçün daha sərfəli müştəri qruplarına fokuslanır.

Müştəri əlaqə idarəetmə (MƏİ) sistemi kimi adlandırılan bu sistem hazırda geniş istifadə edilməklə, xərc-uçot məlumatlarında müştərilərlə münasibətlərin bütün mərhələlərində istifadəni nəzərdə tutur. Mütəxəssislər tərəfindən yeni dəyərin formalaşmasının ən mühüm mərhələsi hesab edilən paylama (distribusiya) mərhələsində uçot məlumatlarından təchizat zəncirində əlavə edilən dəyərlər üzrə biznes proseslərinin müəyyən edilməsi məqsədləri üçün istifadə edilir. Belə ki, bu mərhələnin ən səciyyəvi xüsusiyyəti həmin biznes əməliyyatlarının təşkilatın özü və ya autsorsinq edərək, kənar müəssislər tərəfindən həyata keçirilməsi üzrə xərc effektivliyinin qiymətləndirilməsindən ibarətdir. Qeyd etmək lazımdır ki, hazırda əksər müəssisələr məhz distribusiya mərhəsində autsorsinqə daha çox üstünlük verirlər. Burada isə ən vacib məsələ autsorsinq xidmətini həyata keçirən təşkilatın qlobal bir partnyor olması, bazarlar üzrə ixtisaslaşmış informasiyaya malik olması, tənzimləmələr və gömrük rəsmiləşdirilmələri kimi üstünlüklərə malik olmasdır.

Nəticədə, xərclər üzrə ətraflı uçot məlumatlarına malik olmaq məhsulların paylanmasında ən effektiv tərəfdaşın müəyyən edilməsinə imkan yaradır.

Müştərilərə xidmət mərhələsində xərc-uçot məlumatları nisbətən yeni strateji xərc-idarəetmə metodu hesab olunan ümumi keyfiyyət idaəetməsi (ÜKİ) konsepsiyasına əsaslanır. Burada xərc-uçot məlumatları məhsul və göstərilən xidmətlərin keyfiyyətinin müəyyən edilməsində menecelərə əhəmiyyətli köməklik göstərir. Əvvəla, keyfiyyət xərci sistemləri (KXS) yararsız məhsul vahidləri barədə xərcləri müəyyən etməklə, keyfiyyətiz məhsulların satışı ilə bağlı iqtisadi fayda üzrə itkiləri məyyən edir. İkincisi isə xərc-uçot məlumatları istehlakçılara təklif edilən daha uzunmüddətli və geniş zəmanətlər hesabına gəlirlərdə qiymətləndirilən artımlarla planlaşdırılan zəmanət iddiaları arasında müqayislərin aparılması üçün qərar qəbul edənləri lazımi informasiya ilə təmin edir.

**Elçin Camalov,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı**

# Bir günlük tələbələr: “Özümüzü UNEC tələbəsi kimi görmək istəyirik”



“UNEC-də bir gün” layihəsi uğurla davam edir.

Nizami rayonu 229 saylı məktəbin şagirdləri UNEC-in bir günlük tələbələri olub.

Şagirdlərə şərti tələbə biletləri təqdim edildikdən sonra onlara ixtisaslar, təqaüd və mübadilə proqramları, beynəlxalq əlaqələr barədə ətraflı məlumat verilib. Bir günlük tələbələr bank proqramları və elektron resurslarla təchiz edilən “İnnovativ bankçılıq” laboratoriyasında olublar. Onlara bildirilib ki, laboratoriyada bank əməliyyat proqramının demo versiyası üzərindən bank əməliyyatları həyata keçirilir.

Bir günlük tələbələr Radio UNEC-lə də tanış olublar. “Tələbələrə” Yaradıcılıq Mərkəzi barədə ətraflı məlumat verilib. Sonra bir günlük tələbələr Maliyyə və mühasibat fakültəsinin qonağı olublar. Dekan müavini onların fakültə ilə bağlı suallarını cavablandırıb. UNEC-lə tanışlıqdan sonra bir günlük tələbələr Maliyyə təhlili fənnini dinləyiblər. UNEC-dən müsbət təəssüratlarla ayrılan məktəblilər “UNEC-də bir gün” layihəsinin onlara verdiyi imkanı yüksək qiymətləndiriblər: “2-ci ixtisas qrupu üzrə hazırlaşır, gələcəkdə özümüzü UNEC tələbəsi kimi görmək istəyirik. UNEC-də bir günlük tələbəlik seçimimizdən bir daha əmin olmağımıza kömək etdi!” “UNEC-də bir gün” layihəsində iştirak etmək istəyənlər 497-58-63 telefon nömrəsinə zəng edə, yaxud UNEC-in rəsmi Facebook səhifəsi ilə əlaqə saxlaya bilərlər.

# “ASAN xidmət” mərkəzlərində POS-terminallar quraşdırılıb

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”nin icrası çərçivəsində Azərbaycan Respublikasının Mərkəzi Bankı ölkədə rəqəmsal ödənişlərin genişləndirilməsi prioriteti üzrə tədbirləri davam etdirir.

Mərkəzi Bankdan daxil olmuş məlumata görə, Azərbaycan Respublikası Mərkəzi Bankının, Maliyyə Bazarlarına Nəzarət Palatasının, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, “ASAN xidmət” mərkəzlərində fəaliyyət göstərən bankların və xidmət mərkəzlərinin birgə fəaliyyəti nəticəsində “ASAN xidmət” mərkəzlərində ödəniş kartları ilə Mərkəzi Bank tərəfindən yaradılmış “Hökumət Ödəniş Portalı” (HÖP) üzərindən təqdim olunan xidmətlərə görə nağdsız ödənişlərin aparılması üçün POS-terminallar quraşdırılaraq vətəndaşların istifadəsinə təqdim edilmişdir.

Aparılan əməliyyatların effektivliyinin artırılması məqsədilə Mərkəzi Bank tərəfindən yaradılmış Banklararası Kart Mərkəzi üzərindən keçən əməliyyatlar üzrə interçeync xidmət haqqının sıfır AZN həcmində təyin edilməsi banklarla razılaşdırılmışdır.



# UNEC tələbələrindən nümunəvi addım



UNEC-in tələbələri biliklərini valideyn himayəsindən məhrum olan uşaqlarla paylaşıblar.

Görüş UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə I kurs tələbələrinin təşəbbüsü ilə həyata keçirilib. Əksəriyyəti prezident təqaüdçüsü olan və qəbul imtahanlarında 600-dən yüksək bal toplayaraq UNEC-in xüsusi təqaüdünə layiq görülən I kurs tələbələri Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti öz bilik və təqaüdlərini valideyn himayəsindən məhrum olan uşaqlarla paylaşmaq istədiklərini bildiriblər. Bu məqsədlə onlar Xəzər rayonunda yerləşən valideyn himayəsindən məhrum olan uşaqlar üçün 2 nömrəli ümumi orta internat məktəbində olublar.

Tələbələr şagirdlər arasında riyaziyyat, coğrafiya, ədəbiyyat, tarix və musiqi fənləri üzrə müsabiqə keçiriblər. Qaliblərə kubok və hədiyyələr təqdim edilib.

Universitetə yüksək balla qəbul olunan tələbələrlə tanışlıqdan məmnunluqlarını ifadə edən şagirdlər gələcəkdə onlar kimi yüksək nəticə toplayaraq tələbə adını qazanmaq arzusunda olduqlarını bildiriblər. UNEC-in tələbələri universitetə hazırlaşan şagirdlərə ixtisas seçimində istiqamət verməyə və özlərinin əlavə dərs vəsaitlərini onlara təqdim etməyə hazır olduqlarını qeyd ediblər.

# Strateji Yol xəritələri üzrə tədbirlərin icrasına dair müzakirələr davam edir

İqtisadiyyat Nazirliyində Strateji Yol xəritələri üzrə tədbirlərin icrasına dair müzakirələr davam edir.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirlikdə ixtisaslaşmış turizm sənayesinin, peşə təhsili və təliminin, telekommunikasiya və informasiya texnologiyalarının inkişafı, eləcə də milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol xəritələrində nazirliyin əsas icraçı olduğu tədbirlərin icra vəziyyətinə dair növbəti iclaslar keçirilib.

İclaslarda nazirliyin əsas icraçı olduğu tədbirlərə dair əvvəlki müzakirələr zamanı verilmiş tapşırıq və tövsiyələrin icrası barədə hesabat məruzələri dinlənilib, icra zamanı qarşıya çıxa biləcək məsələlərin həlli üzrə fikir mübadiləsi aparılıb.

# REKLAMIN VİZUAL TƏRTİBATI ÜÇÜN PSİXOLOJİ ÜSULLAR

**(əvvəli ötən sayımızda)**

**VARİANTLILIQ**

Reklamınızın ən ideal variantı onun müxtəlif versiyalarını nümayiş etdirməkdir. Təkrar təsirlər zamanı insanlar brendə daha möhkəm bağlılıq formalaşdıraraq, asanlıqla reklamı emal etməyə başlayırlar.

Sonrakı nümayişlər insanların yaddaşındakı ilkin variantı bərpa etməyə sövq edir. Xatırlamaların hasil olmasının bu sahədə hərəkəti onların yaddaşını möhkəmləndirir.

Lakin əgər siz eyni reklamı təkrarlayırsınızsa, xüsusilə tanış olmayan bir brenddirsə, qıcıqlanma yaranmağa başlayır. Bunun üçün kiçik dəyişikliklər lazımdır.

**Loqotip**

Elanın yeni variantlarının yaradılması zamanı brendli elementin yerdəyişməsinə çalışın.

Aparılan tədqiqatlarda alimlər loqotipin yerinin dəyişdiyi elanların müxtəlif variantlarını eksperiment iştirakçılarına nümayiş etdirmişlər. Hətta əgər iştirakçılar dəyişiklikləri müşahidə etməmişlərsə, loqotipin yerdəyişməsi zamanı onlar bu loqotipi daha əlverişli qiymətləndirmişlər. Biz eksperimentdə göstəririk ki, birinci nümayişdən sonuncu nümayişə qədər reklam elanında nisbi kiçil vizual dəyişiklik təsadüfən aşkar oluna bilər. Dəyişikliyin aşkar olunması, ehtimal ki, iştirakçıları informasiyanın emalının sürətini artıran əmtəə ilə loqotipin nisbətinin emalı üçün zəruri olan çoxlu resurslar (beynin) sərf etməyə məcbur edir.

Siz kiçik vizual dəyişiklikləri əlavə edən zaman insanlar onu şüuraltı müşahidə edirlər. Daha yüksək qavrama sürəti sayəsində onların belə kontentə olan üstünlüyü inkişaf edir.




**Bazarın seçilmiş seqmentinə uyğun olaraq modellərin dəyişməsi**

Öz reklamınız üçün model (qəhrəman) seçimi zamanı siz bazarınızın nümayəndələrini xatırladan nəyisə seçməlisiniz. Bu, vurğulanmış oxşarlıq elanın cəlbediciliyini artıracaqdır.

Bu taktikaya seqmentləşmə kömək edə bilər. Fərz edək ki, siz Facebok-da targetləşmiş, yəni hədəflənmiş reklamdan istifadə edirsiniz. Eyni elanı hamıya göstərmək əvəzinə, bazarın konkret seqmentinin iştirakçısını xatırladan kimsə ilə qəhrəmanı əvəz edin.




**Zaman ərzində reklama diqqətin cəmlənməsi**

İmtahana hazırlaşan zaman insan addımbaşı fənni öyrənməlidir və imtahandan bir gecə əvvəl ərzində öyrənməyə cəhd göstərməməlidir. Tədricən hərəkət edərək, o, informasiyanı yadda saxlayır və sonra onu daha səmərəli bərpa edir. Bu hal reklam elanları ilə də baş verir. Əgər elanlar bir-birindən əlahiddə halda deyillərsə, insanlar çox zaman o məhsulu almağa cəhd göstərəcəklər.

Səpələnmiş təsirlərin tətbiqi ilə tamaşaçılar sizin elanınızı sürətlə xatırlaya bilərlər. Bundan əlavə, həddən artıq yüklənmiş reklam elanı çox zaman təkrarlanan tezlik səbəbindən müştəriləri qıcıqlandıra bilər.

Müştərilərin qıcıqlarından xilas olmaqdan ötrü (və bölgü effektindən fayda əldə etmək üçün) siz tədricən uzun müddət ərzində reklam təsirini yaymalısınız.




**(davamı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Bakcell şirkəti və Qərbi Kaspi Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti və Azərbaycanın ilk özəl ali təhsil müəssisəsi olan Qərbi Kaspi Universiteti (Western Caspian University) arasında əməkdaşlıq memorandumu imzalanıb. Dekabr ayının 14-də Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers və Qərbi Kaspi Universitetinin rektoru Andris Leitas tərəfindən imzalanan Memoraduma əsasən, tərəflər arasında elm, təhsil, kadr məsələləri və qarşılıqlı maraq kəsb edən digər sahələrdə əməkdaşlığın qurulması nəzərdə tutulur. Bu əməkdaşlıq çərçivəsində görüləcək işlər ölkəmizdə təhsil və iqtisadiyyatın inkişafı üçün faydalı olmaqla yanaşı, Azərbaycan gənclərinin əmək bazarına uyğun mütəxəssis olaraq yetişdirilməsinə töhfə verəcək.

"Bakcell ilə imzaladığımız bu razılaşma gənclərimiz üçün yeni gözəl imkanlar yaratmaqla yanaşı, bir çox birgə layihələrin həyata keçirilməsi üçün başlanğıc nöqtəsi olacaqdır. Həmçinin, birgə fəaliyyətimiz çərçivəsində universitet tələbələrinin Bakcell şirkətinin müxtəlif təcrübə və stajkeçmə proqramlarında iştirakı və digər birgə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bundan əlavə, "Bakcell"in təcrübəsi universitetimiz tərəfindən qurulmuş Texnoparkın inkişaf etdirilməsinə, bu Texnoparkda müxtəlif istiqamətlər üzrə Startap layihələrinin həyata keçirilməsinə böyük dəstək olacaq", - deyə Andris Leitas bildirib.

"Azərbaycanın milli mobil operatoru olaraq, Bakcell şirkəti uzun illərdir ki, Azərbaycan gənclərinə təhsil və karyeranın qurulması istiqamətlərində dəstək göstərməkdədir. Bu fəaliyyət çərçivəsində gənclər üçün şirkətdə təcrübə və iş imkanları yaradılıb. Biz Qərbi Kaspi Universiteti ilə əməkdaşlığa başlamağımıza çox şadıq və təbii ki, universitetin mühüm layihələrinin həyata keçirilməsində öz dəstəyimizi əsirgəməyəcəyik", - deyə Nikolai Beckers bildirib.

Tərəflər arasında imzalanmış sənəd müxtəlif sahələr üzrə elmi tədqiqat işlərinin aparılmasında stimullaşdırıcı tədbirlərin qarşılıqlı həyata keçirilməsi, tələbələrin təcrübə keçməsi üçün dəstək verilməsi, universitet məzunlarının ixtisaslarına uyğun işlə təmin edilməsinə dəstək verilməsini nəzərdə tutur. Eyni zamanda, razılaşmaya əsasən, Bakcell şirkəti özünün Applab layihəsi çərçivəsində gördüyü işlərə əsaslanaraq universitet tərəfindən qurulmuş Texnoparkın (Yüksək Texnologiyalar Parkının) inkişaf etdirilməsi və orada müxtəlif istiqamətlər üzrə startap layihələrinin həyata keçirilməsi sahəsində öz təcrübəsini bölüşəcək.

# Azərbaycanın media təmsilçiləri İstanbul şəhərinə səfər etmişlər



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 14 nəfərlik nümayəndə heyəti Türkiyənin İstanbul şəhərinə səfər etmişdir. Nümayəndə heyətinin Türkiyənin informasiya məsələlərinə məsul qurumlarında, aparıcı KİV-in redaksiyalarında, o cümlədən müxtəlif iqtisadi, mədəni yönümlü təşkilatlarda görüşləri nəzərdə tutulmuşdu.

Səfər proqramı dekabrın 13-də ümumilli lider Heydər Əliyevin İstanbul şəhərindəki abidəsinin ziyarət edilməsi ilə başlamışdır.

Türkiyə Dış Ekonomik İlişkiler Kuruluna (DEİK) gələn Azərbaycan media təmsilçilərini qurumun başqan yardımçısı Cengiz Gül qarşılayıb. O, nümayəndə heyəti ilə görüşdə təmsil etdiyi qurumun dünya ölkələrində, o cümlədən Azərbaycanda gerçəkləşdirdiyi layihələr barədə məlumat verib. DEİK təmsilçisi Azərbaycanla bağlı layihələrdə Naxçıvan Muxtar Respublikasına xüsusi diqqət yetirildiyini də önə çəkib. Azərbaycanın iradəsi ilə gerçəkləşdirilən Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsindən sonra qurumun Azərbaycanla bağlı daha böyük layihələr gerçəkləşdirəcəyi bildirilib. DEİK təmsilçisi planlaşdırılan layihələrin uğurla tamamlanması üçün medianın verə biləcəyi faydalar barədə fikirlərini bölüşüb.

Türkiyə Seyahat Agentaları Birliyində Azərbaycan media təmsilçilərini təşkilatın xarici əlaqələr üzrə koordinatoru Gülberk Aşyarap və departament rəhbəri Fatih Gönül qarşılayıb. Gülbek Aşyarap Azərbaycanla qarşılıqlı turist axınının gücləndirilməsi yönündə layihələndirilən proqramlar barədə məlumat verib. Azərbaycanda ciddi turizm potensialının olduğunu vurğulayan Aşyapar bu sahənin inkişafı üçün qarşılıqlı əlaqələrin gücləndirilməsinin faydalı olduğunu qeyd edib. O, layihələrin uğurla tamamlanması, hər iki ölkədə turizmin inkişaf etməsi üçün medianın dəstəyinə ümid etdiklərini önə çəkib.

Dekabrın 14-də media təmsilçiləri Türkiyənin məşhur media qurumlarında görüşlər keçiriblər. Turkuvaz Media Qrupuna gələn nümayəndə heyətinə media qurupun mövcud durumu, tətbiq etdiyi texnologiyalar barədə məlumat verilib. Daha sonra görüş ingilisdilli "Daili Sabah" qəzetinin redaksiyasında davam etdirilib. Qəzetin redaktoru Mehmet Çelik xəbər əldəetmə və yayma imkanları, ümumilikdə mediaya münasibət barədə fikirlərini çatdırıb. O, nümayəndə heyətini maraqlandıran sualları cavablandırıb. Turkuvaz Media Qrupunun yayımladığı xəbərlərdə Azərbaycana aid informasiyaların kəmiyyəti və keyfiyyəti barədə xüsusi müzakirələr aparılıb.

Daha sonra nümayəndə heyəti üzvlərinin İstanbul Aydın Universitetində görüşü keçirilib. Universitetin direktor müavini Selman Arslanbaş nümayəndə heyətinə Universitetin fəaliyyəti, Azərbaycanla bağlı proqramları barədə məlumat verib. Daha sonra universitetdə təhsil alan azərbaycanlı tələbələrlə görüş keçirilib.



Nümayəndə heyətinin üzvləri İstanbulda tarixi abidələrlə tanış olub, mədəniyyət obyektlərində görüşlər keçiriblər.

Azərbaycan media təmsilçilərinin İstanbula səfər proqramı dekabrın 17-nə qədər davam etmişdir.

Səfər proqramı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun "Beynəlxalq media təcrübəsinin öyrənilməsi və tətbiqi" layihəsi çərçivəsində keçirilmişdir. Nümayəndə heyətinin tərkibinə Fondun Müşahidə Şurasının sədri, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı, "Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı, "Kür" qəzetinin baş redaktoru Əminə Yusifqızı, "Həftə içi" qəzetinin baş redaktoru Sevinc Seyidova, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, "Bizim yol" qəzetinin baş redaktoru Bahəddin Həziyev, "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev, "Mövqe" qəzetinin baş redaktoru Rasim Bayramov, "AzərTAC" İnformasiya Agentliyinin müxbiri Səlim Rəhimzadə daxil idi.

Bakı şəhəri, Yasamal rayonu, Qırmızı Şərq küçəsində yerləşən 332 nömrəli 5 mərtəbəli binanın 43 nömrəli mənzilində tam mülkiyyət hüquqlu Hacıyeva Nazlı Mirzəcan qızının adına verilmiş **Seriya: MN 0012517** nömrəli "Çıxarış" itdiyi üçün etibarsız sayılır.

Mustafayev Roman Abil oğlunun adına Bakı şəhəri, Sabunçu rayonu,Vişnyovka-1, 920 saylı Bağ sahəsinin bir hissəsinə verilmiş **Seriya: RX 0640795** nömrəli "Çıxarış" itdiyi üçün etibarsız sayılır.

Mustafayev Roman Abil oğlunun adına **Seriya: AA 072903** nömrəli Bakı şəhəri Sabunçu rayonu,Vişnyovka-1, 920 saylı Bağ sahəsinin bir hissəsinə verilmiş "Torpaq sahəsinin plan və ölçüsü" sənədi itdiyi üçün etibarsız sayılır.

**ETİBARSIZDIR**

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimova bacısı

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimova bacısı

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**